www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17-19 avqust 2024-cü il Şənbə № 146 (8519) Qiymətı 60 qəpik

**Xəbər**

## Qız uşaqlarının sayı niyə azalır? - təhlükəli tendensiya

yazısı səh.13-də

**Gündəm**

### Azərbaycanın Avropa üçün önəmi - qaz idxalı bu həddədək arta bilər



**İlham Şaban:** "Prezident demişdi ki, 2027-ci ilədək Azərbaycan Avropaya qaz nəqlini minimum 16 milyard kubmetrə çatdıracaq"

yazısı səh.5-də

### Çinlə birgə reallaşacaq nəhəng nəqliyyat layihəsi

yazısı səh.10-da

### Qəzzanın yarıdan çoxu xarabalığa çevrilib, İsraillə HƏMAS kritik danışıqlar aparır...

yazısı səh.8-də

### Manatımızın dünəni və bu günü - dünyada neçənci yerdədir?

yazısı səh.6-da

### Sumqayıtda qumbara partlayıb, 66 yaşlı kişi ölüb

yazısı səh.13-də

### Rusiya-Ukrayna müharibəsi əndazədən çıxır - Moskva nüvə bombası ata bilərmi...

yazısı səh.12-də

### Moldova və Rumıniya birləssə, Qaqauziyada referendum keçiriləcək

yazısı səh.2-də

### Azərbaycandan Türkiyəyə turist axını 500 min nəfəri ötüb

yazısı səh.14-də

### Kasıbların şərikli interneti - qiymət artımından çıxış yolu...

yazısı səh.15-də

### "Salyan Oyl"un işçisi özünü yandırdı - şirkət açıqlama yaydı

yazısı səh.15-də

### AQTA-dan qida təhlükəsizliyini pozanlara sərt xəbərdarlıq

yazısı səh.3-də

# ERMƏNİSTANIN NAXÇIVAN TƏXRİBATININ PƏRDƏARXASI - MƏKRLİ SSENARİ

Muxtar respublikanın iki dəfə atəşə tutulması İrəvana baha başa gələ bilər; Paşinyanın hiyləgər planı, yoxsa sülh istəməyən revanşistlərin təxribatı? - rəylər



yazısı səh.7-də

# Virus həyəcanı - yeni qrip növü, meymunçiçəyi...

Türkiyədə bir nəfər meymunçiçəyinə yoluxma şübhəsi ilə karantinə alındı; həkimlərdən SOS!: "Əgər buna əməl edilməzsə, yaxın aylarda..."

yazısı səh.11-də



### Putin Azərbaycana dövlət səfərinə gəlir

yazısı səh.2-də



*Azər Badamov:*

### "Ermənistanın bu hərəkəti sülh müqaviləsini imzalamaq istəməməsindən irəli gəlir"

yazısı səh.9-da



*Fazil Mustafa:*

### "Seçicilərlə görüşdə ən çox işsizlik problemindən şikayət olur, bu, ciddi bəladır, ikincisi..."

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 146 (8519) 17 avqust 2024

# Moldova və Rumıniya birləşsə, Qaqauziyada referendum keçiriləcək




Moldova və Rumıniyanın birləşməsi halında Qaqauziyada ayrıca referendum keçiriləcək.

Musavat.com xarici mediaya istinadla xəbər verir ki, bunu Qaqauz Yeri muxtariyyətinin başqanı (rəhbəri) Yevgeniya Qutsul bildirib.

Qutsul "Qələbə" blokunun Moskvada keçirilən konqresi ərəfəsində Rumıniya və Moldovanın birləşdirilməsi ehtimalını şərh edib. O, Qaqauziya sakinlərinin fikirlərini ifadə etmək üçün referendum keçirməyi planlaşdırdığını açıqlayıb.

"Sakinlərin fikrincə, biz qərar əsasında hərəkət etməliyik", - deyə region rəhbəri vurğulayıb.

Əvvəllər Moldova sakinlərinin yarıdan çoxu respublikanın NATO və Rumıniyaya daxil olmasına qarşı çıxırdı. Ölkə sakinlərindən ölkənin NATO, Avropa İttifaqına daxil olması və Rumıniya ilə birləşməsi ilə bağlı referendumlarda öz mövqelərini bildirmələri istənilib.

Onu da qeyd edək ki, Qaqauz Yeri muxtariyyətinin rəhbərliyi son illərdə açıq Moskvapərəst siyasət yeridir və rəsmi Kişinyovla "məxməri intriqa" içindədir.

❑ Musavat.com



## Putin Azərbaycana dövlət səfərinə gəlir

**Rusiya prezidenti Vladimir Putin Azərbaycana dövlət səfərinə gəlir.**

APA xəbər verir ki, bu barədə Kreml məlumat yayıb.

Rusiya liderinin səfəri 18-19 avqust tarixlərində baş tutacaq.

Vladimir Putinin Azərbaycana səfərinin yekunları üzrə dövlət başçılarının birgə bəyanatının qəbul edilməsi, hökumətlərarası sənədlərin imzalanması planlaşdırılır.



## 3 gün sonra ilk Super Ay görünəcək

**19 avqust 22:26-da 2024-cü ilin ilk Super Ayı müşahidə olunacaq.**

Bu barədə APA-ya Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib.

Bildirilib ki, bu Super Ay Mavi Super Aydır. Ayın mavi çalarda görünməsi çox nadir hallarda vulkan püskürməsi zamanı yaranmış toz səbəbli baş verə bilər. Hazırda isə Populyar elmdə müxtəlif xalqların folkloru əsasında simvolik olaraq fəsli və aylıq Super Ayı ifadə etmək üçün istifadə olunur.

Fəsli Super Mavi Ay daha nadir baş verir, fəslin 4 bədrlənmiş Aydan 3-cüsü Mavi Ay adlanır. Aylıq Mavi Ay isə bir təqvim ayındakı ikinci bədrlənmiş Aya deyirlər. Bu dəfə müşahidə olunacaq Super Ay fəsli mavi Aydır.

Ayın orbiti tam dairə deyil, elliptik olduğundan, Yerlə Ay arasındakı məsafə daim dəyişir. Ay öz perigeyində bədrlənmiş Ay fazasına uyğun gələrsə, o zaman Super Ay müşahidə olunur.

Super Ay adlandırılan bu hadisə zamanı Ay 14% böyük və 30% parlaq görünür. 19 Avqustda Ay saat 19:41-də doğacaq və səhər saatlarınadək görünəcək və bu zaman Yerlə Ay arasındakı məsafə 361,969 km olacaq.

Qeyd edək ki, ilin sonunadək 18 sentyabr, 17 oktyabr və 15 noyabrda daha 3 Super Ay müşahidə olunacaq.

## Dohada keçirilən danışıqlara HƏMAS nümayəndələri qatılmayıb

**Qəzza üzrə danışıqların Doha raundu başa çatıb.**

APA xəbər verir ki, bu barədə Qətər Xarici İşlər Nazirliyinin sözçüsü bildirib.

O qeyd edib ki, danışıqların nəticəsi ilə bağlı bəyanat yayımlanacaq.

İsrail mediasının məlumatına görə, Dohada atəşkəs danışıqlarında iştirak edən İsrail nümayəndə heyəti bu axşam ölkəyə qayıdacaq.

Qeyd edək ki, ötən gün Qəzzada atəşkəsin elan edilməsi ilə bağlı Qətərin paytaxtı Dohada danışıqlar başlayıb.

Görüşdə Qətər, ABŞ, Misir və İsrail nümayəndələri iştirak edib.

Dohada keçirilən danışıqlara HƏMAS nümayəndələri qatılmayıb.

"Dohada Qəzza ilə bağlı danışıqlar ciddi, konstruktiv və müsbət mühitdə keçib".

Bu barədə Misir, Qətər və ABŞ-ın birgə bəyanatında deyilir.

Bəyanatda qeyd olunub ki, tərəflər Qəzzada müharibəyə son qoymaq üçün razılığa gəlmək ümidi ilə gələn həftənin sonuna qədər Qahirədə yenidən görüşəcəklər.



## II Dünya müharibəsi iştirakçısı 103 yaşında vəfat etdi

**İkinci Dünya müharibəsi iştirakçısı olmuş Masallı sakini Cənnət Teymurov vəfat edib. Modern.az xəbər verir ki, müharibə veteranı 103 yaşında dünyasını dəyişib.**

Bildirilib ki, Teymurov Cənnət Eniş oğlu Masallı rayonu üzrə 1941-1945-ci illər müharibəsi iştirakçılarından yeganə sağ qalan şəxs olub.

## Qəzzanın bərpasına 80 milyard vəsait lazımdır



**İsrailin Qəzza zolağında yaşayış infrastrukturuna endirdiyi zərbələr 42 milyon ton tikinti tullantıları yaradıb. Tullantıları təmizləmək üçün illər və yüz milyonlarla dollar lazım olacaq.**

Musavat.com xəbər verir ki, bu barədə "Bloomberg" BMT-nin məlumatlarına istinadən yazıb.

Qeyd olunub ki, Fələstin anklavının bərpası üçün ən azı 80 milyard dollar, binaların dağıntılarını çıxarmaq üçün isə təxminən 700 milyon dollar tələb olunacaq.

Nəşr yazır ki, Qəzzada dağıntıların miqyası misilsizdir və bu, əsas idarəetmə institutlarının, infrastrukturun bərpasını çətinləşdirəcək.

❑ İqbal RZAYEV,
Musavat.com



## Blinken İsrailə gedir

**ABŞ dövlət katibi Entoni Blinken bazar günü İsrailə səfər edəcək.**

APA İsrail mediasına istinadən xəbər verir ki, Blinken bazar ertəsi səhər İsrail baş naziri Benyamin Netanyahu ilə görüşəcək.

Bundan sonra o, Misir və Qətərə səfər edəcək.



## Seçicilərin sayı açıqlandı

**Milli Məclisə seçkilərdə 6477 seçki məntəqəsi fəaliyyət göstərir.**

APA xəbər verir ki, bu barədə Mərkəzi Seçki Komissiyasının dünən keçirilən iclasında MSK sədri Məzahir Pənahov deyib.

MSK sədri bildirib ki, onlardan 6343 daimi, 134-ü isə müvəqqəti seçki məntəqələridir.

"Seçicilərin sayı isə 6 421 073 nəfərdir", - MSK sədri Məzahir Pənahov qeyd edib.



## Pakistan Azərbaycan vətəndaşları üçün viza rüsumlarını ləğv etdi

**Pakistan hakimiyyəti 126 ölkənin vətəndaşları, o cümlədən azərbaycanlılar üçün vizasız rejim tətbiq edib.**

Modern.az xəbər verir ki, bu barədə "visasnews" portalı məlumat yayıb.

Bu addım bir anda bir neçə problemi həll etmək üçün nəzərdə tutulub. Bunlardan birincisi ölkəyə turist axınını bərpa etməkdir.

Qeyd olunur ki, giriş sənədinin etibarlılıq müddəti 90 gündür.

YENİ MÜSAVAT
N 146 (8519) 17 avqust 2024

# Alimpaşa Məmmədovun şikayəti üzrə məhkəmə başlayıb

**Şəmkirin keçmiş icra başçısı Alimpaşa Məmmədovun barəsində olan hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə prosesi başlayıb.**

APA xəbər verir ki, Gəncə Apelyasiya Məhkəməsində ilkin baxış iclası keçirilib.

Prosesdə Alimpaşa Məmmədov məhkəmədən işə obyektiv baxmağı xahiş edib. O, səhhətində problemlər yarandığını, ürək əməliyyatı olunacağını qeyd edib.

Prosesdə A.Məmmədovun vəkili cinayət işi üzrə "Azfarel"in satışından qalan 2 milyon manatın 678 min manatının apelyasiya şikayəti icraata götürüləndən sonrakı müddətdə şirkətin sahibinə ödəndiyini deyib. Həmin məbləğ dövlət büdcəsinə köçürülüb.

Baxış iclası sentyabrın 6-na təyin olunub.




Qeyd edək ki, Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən, sabiq icra başçısı 11 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Məhkəmənin hökmü ilə sabiq icra başçısının satılmış və dəyəri dövlət büdcəsinə vurulmuş ziyana yönəldilməsi ilə əlaqədar məhkəmə depozitinə köçürüldüyündən iki əmlakı üzərindən həbs qərarı götürülüb.

Qeyd edək ki, Alimpaşa Məmmədov 2021-ci ilin aprel ayında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyatla həbs olunub.

Sabiq icra başçısına qarşı Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 və 311.3.3-cü (təkrar, külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan olunub. Cinayət işi ilə bağlı sabiq icra başçısının 10 milyonluq əmlakı üzərinə həbs qoyulub.

# 16 milyon manatdan çox əsassız ödəniş edilib

## MN-dəki 143 milyonluq mənimsəmə ilə bağlı məhkəmə davam edir



**Müdafiə Nazirliyinin mənimsəməyə görə tutulmuş Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi, general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov, Quru Qoşunların maliyyə idarəsinin rəisi Bayram Bayramov və Hərbi Dəniz Qüvvəllərinin maliyyə xidmətinin sabiq rəisi Vüsal Əlizadənin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

APA xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakim Fikrət Əliyevin sədrliyi ilə keçirilən prosesdə cinayət işində olan sənədlərin tədqiqi aparılıb.

İclasda ümumilikdə 77 cilddə, əksəriyyəti mühasibatlıq və maliyyə aktlarından ibarət olan sənəd tədqiq olunub.

Sənədlərdə Müdafiə Nazirliyinin katibliyinin işlər idarəsində ümumilikdə 16 milyon 84 min 837 manat əsassız ödənişlər edildiyi qeyd olunub.

Proses avqustun 23-də davam etdiriləcək.

Qeyd edək ki, Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin (HHQ) Maliyyə Xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov, Quru Qoşunların maliyyə idarəsinin rəisi Bayram Bayramov, Hərbi Hava Qüvvələrinin maliyyə xidmətinin sabiq rəisi Vüsal Əlizadə, Müdafiə Nazirliyinin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi, polkovnik Mahir Şirvanov, həmçinin nazirliyin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi Məlikməmməd Qurbanov, nazirliyin mənzil istismar idarəsinin sabiq rəisi, polkovnik Fikrət Mirzəyev Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi xüsusi əməliyyat nəticəsində həbs ediliblər.

Təqsirləndirilən şəxslər dövlət büdcəsindən ayrılan pulları mənimsəməkdə ittiham edilirlər.

Xatırladaq ki, cinayət işi üzrə ümumilikdə dövlətə dəymiş ziyan 143 milyon manatdır. Cinayət işləri ayrı-ayrı icraatlarda baxılması üçün məhkəməyə göndərilib. İstintaq dövründə dövlətə vurulmuş ümumi ziyanın 40 milyon manatı ödənilib.

Cinayət işi üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb. Təqsirləndirilən şəxslərin hər biri Cinayət Məcəlləsinin 179.4-cü (xüsusi ilə külli miqdarda ziyan vurmaqla mənimsəmə törətmək) maddəsi ilə ittiham irəli sürülüb.

# AQTA-dan qida təhlükəsizliyini pozanlara sərt xəbərdarlıq

**"Son zamanlar ictimai iaşə müəssisələrində, xüsusilə də ev şəraitində hazırlanan qida məhsullarının kütləvi tədbirlərdə (şənliklər və yas mərasimlərində) istehlakı nəticəsində zəhərlənmə hallarına rast gəlinir. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən aparılan araşdırmalar çərçivəsində bir sıra ictimai iaşə müəssisələrində keçirilən müxtəlif tədbirlər zamanı qida təhlükəsizliyi ilə bağlı tələblərin pozulması hallarına yol verildiyi aşkarlanır. Həmçinin araşdırmalar zamanı ictimai iaşə müəssisələrinin sahibləri tərəfindən bu cür obyektlərin məclis sahiblərinə gündəlik əsaslarla icarəyə verilməsi halları müəyyən olunur. Təbii ki, bu kimi hallar ictimai iaşə müəssisələrinin rəhbərlərini baş verən hadisələrlə bağlı məsuliyyətdən azad etmir".**

Bu barədə Musavat.com-un sorğusuna cavab olaraq AQTA-dan məlumat verilib.

Bildirilib ki, bəzi hallarda icarəyə götürülmüş ictimai iaşə müəssisələrində verilən qidalar məclis sahibləri tərəfindən evdə heç bir gigiyenik tələblər gözlənilmədən hazırlanaraq temperatur rejimi və sanitar-gigiyenik daşınma qaydaları gözlənilmədən bu müəssisələrə gətirilərək qonaqlara təqdim edilir. Bu kimi hallar kütləvi qida zəhərlənmələrinin baş verməsinə zəmin yaradır.

"Əksər hallarda ev şəraitində hazırlanan müxtəlif turşular, soyuq qəlyanaltılar, salatlar, sərinləşdirici içkilər isə heç bir sağlamlıq sənədi ilə müşayiət olunmadan digər yüksək riskli məhsullarla birlikdə kütləvi şəkildə istehlakçılara təqdim edilir. Odur ki, milli adət-ənənələrimizə ehtiram və xüsusi həssaslıqla yanaşı, həmin tədbirlərə gələn insanların həyat və sağlamlığı nəzərə alınmalı, bu sahədə mövcud qanunvericiliyin tələb və qaydalarına əməl olunmasının həyati əhəmiyyəti diqqətdə saxlanılmalıdır", - məlumatda deyilir.

Agentlik bir daha ictimai iaşə müəssisələrinin rəhbərlərinə xəbərdarlıq edərək, onları bu cür qanunsuz fəaliyyətdən çəkinməyə çağırır. Bildirilir ki, belə kütləvi mərasimlərin keçirilməsi zamanı istehlaka təqdim olunan qida məhsulları mütləq şəkildə ictimai iaşə müəssisələrində mövcud norma və tələblərə uyğun şəkildə hazırlanmalı və istehlaka təqdim edilməlidir.

Qeyd olunan qanunsuz fəaliyyətlərlə bağlı hər hansı fakt aşkarlandığı təqdirdə, həmin ictimai iaşə müəssisəsi ilə bağlı qanunvericiliyin tələblərinə uyğun şəkildə sərt tədbirlər görüləcək.

Xatırladaq ki, avqustun 15-də Qəbələdə toyda 50-dən çox insan zəhərlənib. Bundan öncə də oxşar hadisələr Gəncədə və digər bölgələrdə qeydə alınıb.

❑ **Şahanə RƏHİMLİ,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 146 (8519) 17 avqust 2024




## Türkiyə parlamentində dava düşüb, deputatlar yumruqlaşıblar

**Türkiyə Böyük Millət Məclisində (TBMM) dava düşüb.**

APA xəbər verir ki, bu barədə NTV məlumat yayıb.

Bildirilib ki, TBMM-də Can Atalayın deputatlığının ləğv edilməsi müzakirə edilən zaman Türkiyə İşçi Partiyasından deputat Ahmet Şık AK Partiyasının üzvlərini təhqir edib.

Bundan sonra TBMM-də gərginlik artıb və deputatlar yumruq davasına çıxıblar.

# Seçki görüşlərində qaldırılan məsələlər: yerlərdə əhalini nə narahat edir - açıqlama

## Fazil Mustafa: "İlk növbədə işsizlik problemindən şikayət olur və bu, çox ciddi bəladır; ikinci, sahibkarların problemləri kifayət qədərdir"

**Hazırda ölkədə parlament seçkiləri öncəsi təbliğat-təşviqat kampaniyası aparılır. Bakıda namizədlər əsasən qapalı zallarda görüşlər keçirsələr də, bölgələrdə bir sıra aktiv namizədlər əhali ilə kəndlərdə, məhəllələrdə görüşür. Yayılan videolardan görünür ki, insanlar daha çox yol, su xətləri, işıq problemləri ilə bağlı kömək istəyirlər.**

Bəs deputatlığa namizədlər bu məsələlərə qarışa, müvafiq orqanlar qarşısında məsələ qaldıra bilirmi? Namizədlər əhali ilə görüşlərdə vətəndaşların daha çox nədən narahat olduğunu müşahidə edir?

**Deputatlığa namizəd, VI çağırış Milli Məclisin deputatı Fazil Mustafa mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Əhali ilə görüşdə ilk növbədə işsizlik problemindən şikayət olur və bu, çox ciddi bəladır.

İkinci, sahibkarların problemləri kifayət qədər çoxdur, onların təşəbbüskarlığını həyata keçirmək imkanları xeyli məhduddur və bu da xeyli problemlər yaradır, onları həll etmək üzərində daha çox düşünürük.

Amma qeyd etdiyim kimi, əsas işlə təmin olunma məsələsidir. Böyük əksəriyyət iş problemindən əziyyət çəkir.

Həmçinin əməkhaqlarının aşağı olması haqda şikayətlər çoxdur. Qazilər, müharibə veteranları 80 manat alır ki, bununla da kommunal xərcləri ödəmək imkanları olmur.

Təbii ki, yol və başqa məsələlər də var, amma çox geniş deyil".

**Fazil Mustafa qeyd edib ki, hədsiz mərkəzləşmə yerlərdə problemlərin həll olunmasına imkan vermir:** "Gərək hər bir məsələ üçün yuxarı quruma çıxasan, məsələni onlara da danışasan. Ona görə də çox çətindir. Qurumlarla işləmək əsəb tələb edir. Bir çox hallarda məsələ həll edilməyəndə seçici qarşısında pis vəziyyətdə qalırsan.

Amma gücümüz çatan səviyyədə problemləri həll etməyə çalışırıq. Yazırıq, göstəririk, tələb edirik, bunlardan bəziləri yerinə yetirilir, bəziləri yerinə yetirilmir.

Xüsusən də bir sıra nazirliklər var ki, onlar ümumiyyətlə heç nəyə diqqət yetirmir, hansısa bir vətəndaşla bizim aramızda olan münasibətlərin çözülməsinə dəstək vermir.

Lakin elələri var ki, operativ olaraq öz funksiyalarını yerinə yetirir və bu da sevindirici haldır ki, ən azı müəyyən məsələləri operativ həll etmək mümkün olur".

**REAL Partiyasından deputatlığa namizəd Natiq Cəfərli isə bildirib:** "Bakının özündə belə vətəndaşlar tərəfindən kommunal, infrastruktur problemləri qaldırılır. Regionlarda isə bu məsələ daha qabarıqdır. Bu bir daha onu sübut edir ki, Azərbaycanda artıq yeni yerli özünüidarəetmə sisteminə keçid zamanı yetişib. Yəni ənənəvi icra hakimiyyətləri institutları özünü doğrultmur və vətəndaşların gözləntilərinə cavab vermir. Ona görə də səlahiyyətləri artırılmış, birbaşa seçkilər yolu ilə seçilən bələdiyyə sədrlərinə ehtiyac var.

Deputatlar təbii ki, bölgələrdə olan problemləri müvafiq icra hakimiyyəti strukturları qarşısında rəsmi müraciətlər, məktublar vasitəsilə qaldıra, həllinə nail də ola bilərlər, bu, mümkündür. Lakin niyə yerli problemlərlə yerli bələdiyyələr məşğul olmasın. Vətəndaşların özlərinin seçdiyi bələdiyyə üzvləri gündəlik olaraq həmin məhəllə, qəsəbə sakinləri ilə üzləşəcəklər. Ona görə də bu məsələni yerli özünüidarəetmə institutunun gücləndirilməsi və icra hakimiyyətlərinin ləğvi ilə tamamlamaq lazımdır.



Mənim özümün namizəd olduğum Xətai seçki dairəsi Bakının mərkəzinə yaxın bölgə olsa da, orada da eyni problemlər, məsələlər qaldırılır. Belə ki, məhəllə yollarının bərbad olması, məhəllələrin abadlıq məsələsi, idman meydançalarının olmaması və sairə. Bir çox vətəndaşlardan şikayətlər eşidirik ki, məhəllələrdə idman meydançaları yoxdur, uşaqlar əylənə, idmanla məşğul ola bilmirlər. Bütün bunlar yerli bələdiyyə səviyyəsində həll olunası məsələlərdir. Parlament üzvləri isə qanunvericiliyə təşəbbüslər, dəyişikliklərlə məşğul olmalıdır".

**AĞ Partiya sədri, deputatlığa namizəd Tural Abbaslı qeyd edib ki, müxtəlif dairələrdə müxtəlif spesifik problemlər var:** "Yeni həm regionların, həm də şəhərlərin özünəməxsus problemləri mövcuddur. Bir çox kəndlərdə su, yol, bəzilərində internet, qaz problemi var. Amma Bakı dairələrində qaz, su, işıq nisbətən qaydasında olsa da, insanlar daha çox işsizlikdən, şəraitsizlikdən şikayətlənirlər. Həmçinin Bakıda kütləvi şəkildə planlaşdırılmamış tikinti prosesinin getməsi, uşaqların oynama yerlərinin, insanların istirahət etməsi üçün öz binalarının önündə məkanların qalmaması məsələsi var.

Bundan başqa, sosial müavinətlər, əlilliyin ləğv edilməsi məsələsi də var. Bu məsələlər çox aktualdır. Həmçinin qazı, şəhid ailələrinin problemləri var.

Əgər deputatlığa namizədlər yerlədə görüşlər keçirir və onlara qaz, su, işıq məsələsi ilə bağlı problemlər deyilirsə, bu o deməkdir ki, həmin dairədən olan bundan öncəki deputat 5 il işləməyib.

Namizəd olaraq biz məlum orqanlar qarşısında məsələlər qaldırmırıq, lakin partiya olaraq son 5 ildir bütün orqanlar qarşısında müxtəlif problemlər üzrə məsələlər qaldırmışıq".

Onu da əlavə edək ki, sentyabrın 1-də keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar azad edilmiş ərazilərdə 54 seçki məntəqəsi fəaliyyət göstərəcək. Bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu məntəqələrdən 34-ü daimi, 20-si isə müvəqqəti, yəni beş günlük məntəqələr olacaq.

Bundan başqa, seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına da başlanılıb. MSK sədri seçki bülletenlərinin əsas seçki sənədlərindən biri olduğunu və vətəndaşların öz konstitusion hüquqlarını reallaşdırmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O diqqətə çatdırıb ki, seçki bülletenləri qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada çap edilib başa çatdırılmalı, bütün proses ərzində Seçki Məcəlləsinin müvafiq müddəalarına dəqiqliklə əməl olunmalıdır. M.Pənahov, həmçinin Seçki Məcəlləsinə əsasən seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblərin MSK-nın qərarı ilə müəyyən olunduğunu və Milli Məclisə seçkilərdə 6 milyon 516 min 567 seçki bülleteni hazırlanacağını bildirib. MSK sədri seçki bülletenlərinin çapı və aidiyyəti üzrə aşağı seçki komissiyalarına paylanılması ilə bağlı zəruri tövsiyələrini də diqqətə çatdırıb.

Qeyd etmək lazımdır ki, seçki bülletenlərinin çap prosesi zəruri təhlükəsizliyin təmin edilməsi şərti ilə beynəlxalq təşkilatlar, seçki müşahidə missiyaları, media nümayəndələri və seçkilərin iştirakçısı olan bütün maraqlı subyektlər üçün tamamilə açıq həyata keçirilir.

Həmçinin Milli Məclisə seçkilərlə əlaqədar 300 beynəlxalq müşahidəçi qeydə alınıb. MSK sədri bildirib ki, seçkilərlə əlaqədar 80 minə yaxın yerli müşahidəçi qeydiyyatdan keçib: "Bizim təxminimizə görə, bu rəqəm 100 mini keçəcək".

Xatırladaq ki, Prezident İlham Əliyev iyunun 28-də altıncı çağırış Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla altıncı çağırış Milli Məclis buraxılıb və sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib.

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 146 (8519) 17 avqust 2024



# Azərbaycanın Avropa üçün önəmi - qaz idxalı bu həddədək arta bilər

## İlham Şaban: "Prezident demişdi ki, 2027-ci ilədək Azərbaycan Avropaya qaz nəqlini minimum 16 milyard kubmetrə çatdıracaq"

**Azərbaycanın Avropanın qaz təminatında oynadığı rol getdikcə artır. Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) hesabatına əsasən bu ilin yanvar-iyul aylarında Avropa ittifaqı boru kəmərləri ilə 93 milyard kubmetr qaz idxal edib, bu da illik müqayisədə 5 faiz çoxdur.**

Bu artıma 2023-cü ilin eyni dövrü ilə müqayisədə Rusiyadan idxalın 3,1 milyard kubmetr, Norveçdən idxalın 1,4 milyard kubmetr və Azərbaycandan 0,7 milyard kubmetr artması nəticəsində nail olunub.

Diqqətə çatdırılıb ki, həm Rusiya, həm də Azərbaycandan 2024-cü ilin hər ayında Aİ-yə boru kəməri qazının tədarükü üzrə illik artım qeydə alınıb (APA).

Xatırladaq ki, Avropaya Azərbaycan qazının nəqlinə 2020-ci il dekabrın 31-dən Cənub Qaz Dəhlizinin son komponenti olan Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə başlanılıb. Ondan bəri hər il Avropaya qaz ixracında artım qeydə alınmaqdadır.

2022-ci ilin iyulunda Avropa Komissiyası Azərbaycanla Avropaya qaz nəqlinin 20 milyard kubmetrə qədər artırılmasına dair anlaşma memorandumu imzalayıb. Bu hadisədən sonra TAP kəmərinin nəql gücünün 20 milyard kubmetrə çatdırılması üçün müzakirələr, danışıqlar başlayıb. Lakin bu iş üçün tələb olunan investisiyaların yatırılması məsələsində Aİ ilə Azərbaycan arasında fikir ayrılığı yaranıb. Belə ki, Aİ qalıq yanacaq olan qazla bağlı layihələrə sərmayə yatırılmamasını nəzərdə tutan akta istinad etməklə TAP-ın genişləndirilməsi prosesinə hər hansı sərmayə qoyuluşu etməmək mövqeyini tutur. Bundan əlavə, Avropa mənşəli maliyyə qurumlarına da belə investisiyalar qadağan olunub. Digər tərəfdən, Aİ 2040-cı ildən etibarən qalıq yanacaq hesab etdiyi təbii qazın istehlakından da imtina etməyi hədəfləyir. Bütün bunlar Azərbaycan tərəfindən haqlı tənqid olunur. Rəsmi Bakı infrastrukturu genişləndirmək üçün bütün xərcləri öz üzərinə götürmək niyyətində olmadığını dəfələrlə Prezident İlham Əliyev səviyyəsində açıqlayıb.

Qeyd edək ki, yaxın gələcəkdə Avropada qaza olan tələbatın artması ilə yanaşı, onun təminatçılarından biri olan Rusiyadan nəqlin kəskin şəkildə məhdudlaşması gözlənilir. Belə ki, Ukrayna öz ərazisindən Rusiya qazının tranzitinə dair müddəti 2024-cü ilin dekabrında bitən müqavilənin uzadılmayacağını elan edib. Aİ bu mövqeyi qəbul etməklə, Rusiyadan nəqlin dayanması variantına tam hazır olduqlarını açıqlayıb. Lakin avqustun əvvəlində Ukrayna Rusiya qazının nəql olunduğu Kursk vilayətində hərbi əməliyyata başladıqdan dərhal sonra Avropada qaz qiymətləri kəskin şəkildə artıb: Rusiyadan nəqlin dayanması təhlükəsinə görə. Qısa müddətdə qiymətlər min kubmetr üçün 450 dolları keçib. Sonradan qiymətlər tədricən düşməyə başlasa da, Sucadan nəqlin dayanması təhlükəsi hələ də qalır. Hollandiyanın TTF qaz birjasında təbii qazın oktyabr fyuçersləri avqustun 14-də son səkkiz ayda ən yüksək qiymət olan MVt/saat üçün 41,2 avro və ya 1000 kubmetr üçün 475,9 dollardan MVt/saat üçün 39,8 avroya və ya 1000 kubmetr üçün 459,7 dollara düşüb. Ukraynanın Kursk bölgəsinə daxil olması ərəfəsində qiymətlər MVt/saat üçün 36,4 avro və ya 1000 kubmetr üçün 420,4 dollar təşkil edirdi.

Sentyabr ayından Norveçdə qaz sənayesində planlaşdırılmış texniki xidmət işləri ilə bağlı Avropaya qaz nəqlinin azalması gözlənilir. Baxmayaraq ki, Aİ-nin qaz anbarları 88,47 faiz doludur (97,4 milyard kubmetr), müşahidəçilər payız və qış aylarında bu sahədə problemlərin yaranmasını istisna etmirlər.

Xüsusilə Rusiyadan Ukrayna üzərindən nəql dayanarsa, Avstriya və İtaliyanın qaz təchizatında problemlərin yaranacağı gözlənilir. Burada söhbət bilavasitə çatışmazlıqdan deyil, digər mənbələrdən alınan qazın qiymətinin daha yüksək olmasından gedir. Belə ki, Avstriya öz tələbatını ödəmək üçün İtaliya və Almaniya vasitəsilə LNG almağa məcbur olacaq ki, bu da ona xeyli baha başa gələcək. Slovakiya üçün də çətin olacaq, çünki onun təchizatla bağlı daha az logistik imkanları var. Yalnız "Türk axını" ilə qaz ala biləcək Macarıstan Ukrayna üzərindən nəqlin dayanması halında hər hansı çətinliklə üzləşməyə bilər.

"Fitch" reytinq agentliyi isə fərqli mövqedədir. Agentlik qeyd edir ki, Ukrayna ərazisindən tranzitin dayandırılmasından ən çox Avstriya, Slovakiya və Macarıstan zərər görəcək. Bununla belə, Avstriyanın neft-qaz şirkəti OMV-nin bu yaxınlarda Avropanın təbii qaz nəqli imkanlarına əlavə çıxış əldə etdiyinə və Avstriyanın onu il ərzində təmin etmək üçün kifayət qədər qaz anbarına malik olduğuna diqqət çəkir. Macarıstanın Rusiyanın "Türk axını" qaz kəmərinə və qonşu ölkələrlə bir sıra qaz birləşdiricilərinə çıxışı var. Agentliyin şərhində deyilir ki, Slovakiyada Rusiya qazının tədarükündəki fasilələr Polşa və Xorvatiyanın LNG terminallarından qazı çatdıran tranzit marşrutları üzrə tədarük həcminin artırılması ilə kompensasiya edilə bilər.

"Fitch Ratings"in şərhində deyilir ki, hətta tədarükün tamamilə dayandırılması avropalı istehlakçılara məhdud təsir göstərəcək. 2023-cü ildə Sudjadan qaz tranzitinin həcmi 14,6 milyard kubmetr təşkil edib. Bu da Aİ-nin ehtiyaclarının yalnız 5 faizini təşkil edir. "Fitch Ratings" analitikləri qeyd edirlər ki, Kurskda hərbi əməliyyatlara baxmayaraq qaz tədarükü davam edir, lakin onlar dayansa belə, avropalı alıcılar bu boşluğu mayeləşdirilmiş təbii qaz (LNG) tədarükü ilə doldura biləcəklər. Yüksək qaz saxlama səviyyələri həm də hər hansı ani tədarük itkilərini kompensasiya etməyə kömək etməlidir və təbii qaza tələbat 2022-ci ildən əvvəlki səviyyədən xeyli aşağı olaraq qalır.

Energetika Nazirliyindən "Yeni Müsavat"a verilən məlumata görə, bu ilin 7 ayı ərzində Azərbaycanda təxminən 29,5 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 7,7 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" yataqları blokundan (AÇG), 16,5 milyard kubmetri "Şahdəniz" yatağından, 0,9 milyard kubmetri Abşerondan, 4,4 milyard kubmetri SOCAR üzrə hasil olunub: "Ötən ilin müvafiq dövrünə nisbətən qaz hasilatında təqribən 1,3 milyard kubmetr artım qeydə alınıb".

**Hesabat dövründə xaricə qaz satışı təxminən 14,7 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,7 faiz çoxdur:** "Cari ilin yanvar-iyul aylarında Türkiyəyə təqribən 5,8 milyard kubmetr, Avropaya təqribən 7,5 milyard kubmetr (13,6 faiz artım), Gürcüstana isə 1,4 milyard kubmetr qaz satılıb. Qeyd edək ki, Türkiyəyə TANAP-la bu müddətdə 3,3 milyard kubmetr qaz nəql olunub".

**Enerji məsələləri üzrə ekspert İlham Şabanın "Yeni Müsavat"a dediyinə görə, hazırda TAP-ın ötürücülük gücü 11,8 milyard kubmetrdir:** "Bu gücə daxili resurslar hesabına nail olunub. Amma rəsmi Bakı anlayandan sonra ki, Avropa İttifaqı qaz hasilatının artırılması, Cənub Qaz Dəhlizinin genişləndirilməsi kimi layihələrə investisiya yatırmaq, ucuz kreditləşməyə şərait yaratmaq niyyətində deyil, Azərbaycan başqa yol seçdi. Bu ilin iyununda SOCAR-la Türkiyənin BOTAŞ şirkəti ilə bir neçə müqavilə imzaladı. Onlardan biri də həm Azərbaycanın, həm də üçüncü ölkənin qazının Türkiyə ərazisindən tranzit nəqlinə dair idi. Sonradan açıqlanan məlumatlar göstərdi ki, müqavilə Türkiyə üzərindən qazın Türkiyə-Bolqarıstan interkonnektoru vasitəsilə nəqlini nəzərdə tutur. Bu interkonnektorun hazırda nəql gücü ildə 3,5 milyard kubmetrdir. Artıq Azərbaycan öz qazının bir hissəsini bu kəmərlə Avropaya nəql edir. Ona görə də Azərbaycan Energetika Nazirliyinin Avropaya qaz ixracına dair göstəriciləri ilə TAP-la nəql həcminə dair göstəricilər arasında fərq yaranır. Bu fərq artıq 500-600 milyon kubmetrə çatıb. Bu fərq o deməkdir ki, biz alternativ yolla Avropaya qaz ixracını həyata keçirməyə başlamışıq. Bu, bizə nə verir: əlavə xərc çəkmədən Avropaya qaz nəqlini artırmaq, qaz ixracı corafiyasını genişləndirmək. Azərbaycan Prezidenti demişdi ki, 2027-ci ilədək Azərbaycan Avropaya qaz nəqlini minimum 16 milyard kubmetrə çatdıracaq. Məlumdur ki, 2026-cı ilin sonunadək TAP-ın ötürücülük gücü 13 milyard kubmetrə çatdırılacaq. Bütün bunlar onu göstərir ki, Azərbaycan öz məhsulunu əlverişli bazarlara çıxarmaq üçün imkanlar əldə etməkdə çətinlik çəkmir.

Bir məsələni də vurğulamaq lazımdır ki, Avropaya ixracın artması ucuzlaşma nəticəsində qaz satışından gəlirlərin azalmasını qismən kompensasiya edə bilir. Belə ki, rəsmi məlumata əsasən Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ilin əvvəlindən avqustun 1-dək "Şahdəniz" yatağından (qaz və kondensat) 364,465 milyon dollar gəlir əldə edib. Məlumatdan aydın olur ki, "Şahdəniz" yatağı üzrə gəlirlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 dəfə azalıb. Eyni zamanda "Şahdəniz" yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər hesabat dövründə 2,3 dəfə azalaraq 113,878 milyon dollar təşkil edib.

Fondla yanaşı, qaz qiymətlərinin azalması dövlət büdcəsinə gəlirləri də azaldır. Maliyyə Nazirliyinin açıqladığı məlumata görə, sari ilin ilk altı ayında dövlət büdcəsinin neft-qaz sektoru üzrə daxilolmaları 8 milyard 797,7 milyon manat təşkil edib. Bunun 2 milyard 407,2 milyon manatı vergi daxilolmalarıdır. Bu dövrdə neft-qaz sektoru üzrə vergi daxilolmalarının 48,5 faizini və 1 milyard 167,0 milyon manatını "Şahdəniz" yatağı üzrə mənfəət vergisi, 34,6 faizini və ya 833,3 milyon manatını Dövlət Neft Şirkətinin ödədiyi müvafiq vergilər, 16,9 faizini və ya 406,9 milyon manatını isə ABƏŞ-in mənfəət vergisi təşkil edib. Ötən ilin eyni dövründə "Şahdəniz" qaz-kondensat yatağı üzrə mənfəət vergisi 2 milyard 630,4 milyon manat olmuşdu. Göründüyü kimi, yataqdan büdcəyə daxilolmalar 2 dəfədən çox azalıb.

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

## Azərbaycan bu il 230 milyon dollarlıq neft məhsulları ixrac edib



**Cari ilin yanvar-iyul aylarında Azərbaycan 230 313,05 min ABŞ dolları dəyərində 332 340,61 ton neft məhsulları ixrac edib.**

"APA-Economics"in Dövlət Gömrük Komitəsinin dərc etdiyi göstəricilər əsasında apardığı hesablamalara görə, hesabat dövründə Azərbaycanın ixrac etdiyi neft məhsullarının dəyəri 2023-cü ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 32,4%, həcmi isə 43,3% azalıb.

Xatırladaq ki, ötən il Azərbaycan 572 210,25 min ABŞ dolları dəyərində 925 225,07 neft məhsulları ixrac edib.

Qeyd edək ki, hesabat dövründə Azərbaycanın ixrac etdiyi neft məhsullarının dəyəri 2022-ci ilin göstəricisi ilə müqayisədə 8,5%, həcmi isə 20% artıb.



# Manatımızın dünənì və bu günü - dünyada neçəncì yerdədìr?

## İqtisadçı: "Manat reytinqdə Gürcüstan, Türkiyə, Rusiya milli valyutasından öndədir və..."



**Azərbaycanın milli valyutası - manatın dövriyyəyə buraxılmasından 32 il ötür. Milli pul vahidi olan manat 1992-ci il avqustun 15-də tədavülə buraxılıb. Azərbaycan Respublikasının birinci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib.**

Ölkədə pul tədavülünün yaradılmasının və təşkil edilməsinin əsası Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 11 fevral tarixli "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" Fərmanı ilə Milli Bankın yaradılması və Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 15 iyul tarixli "Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında" Fərmanına müvafiq olaraq milli valyutanın dövriyyəyə buraxılması ilə qoyulub. Bununla əlaqədar olaraq, 1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq əsginaslar, noyabrda 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrda 5 manatlıq əsginas, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əsginaslar dövriyyəyə buraxılıb.

Manatımız bu 32 ildə hansı mərhələləri keçib? Neçə dəfə forması dəyişib, neçə devalvasiya, denominasiya olub? Bu gün milli valyutamız möhkəmliyinə görə dünyada neçənci yerdədir?

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən 2005-ci il fevralın 7-də "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" Fərman imzalanıb. Fərmana uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni manat (AZN) 5000 köhnə AZM-ə bərabər tutulub. AZM və AZN-in birgə 1 il ərzində - 2006-cı ildə dövriyyədə olub və yalnız 2007-ci il yanvarın 1-dən isə yeni manata tam keçid təmin edilib. Lakin AZM-lərin AZN-lərə dəyişdirilməsi prosesinə heç bir məhdudiyyət qoyulmayıb və hazırda da bu proses xırda həcmdə olsa da davam edir. Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əsginaslar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət olub. Yeni manatın dizaynı ilə bağlı müsabiqənin qalibi Avstriyanın "OeBS" şirkətinin dizayneri, avronun müəllifi Robert Kalina olub. Yeni nəsil pul nişanlarının texniki parametrləri isə İsveçrə Milli Bankının texniki dəstəyi ilə hazırlanıb.

Azərbaycan Mərkəzi Bankı tərəfindən hazırda beynəlxalq təcrübədə mövcud olan ən son innovasiyaların və texnologiyaların tətbiqi yolu ilə milli pul nişanlarımızın yenilənməsi prosesləri çərçivəsində "Qarabağ" mövzusuna həsr olunan yeni 20 manatlıq pul nişanı Mərkəzi Bankın 30 illik yubileyi ərəfəsində tədavülə buraxılıb. "Qarabağ" mövzusuna həsr olunmuş bu pul nişanı üzərində əsas dizayn motivləri - Azərbaycan xalqının qüdrətini, gücünü və mübarizə əzmkarlığını əks etdirən qılınc, dəbilqə, qalxan təsvirləri və eləcə də bir sıra digər dizayn elementləri, o cümlədən Qarabağ florasının incisi sayılan və qələbə rəmzini simvolizə edən Xarıbülbül nişanəsi və "Qarabağ" sözü ön plana çəkilib. Yenilənmiş 20 manatlıq kağız pul nişanı hazırda tədavüldə olan eyni nominallı pul nişanı ilə paralel olaraq dövriyyədə olacaq və tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcək.

Eyni zamanda AMB tərəfindən 10, 20 və 50 qəpiklik metal pul nişanlarının dizaynına Dövlət Gerbi və istehsal ili əlavə olunaraq yenilənməsi həyata keçirilib. Yenilənmiş metal pul nişanlarının texniki parametrləri hazırda tədavüldə olan eyni nominallı metal pul nişanına müvafiq olaraq dəyişməz saxlanılıb. Yenilənmiş metal pul nişanları hazırda tədavüldə olan eyni nominallı pul nişanları ilə paralel olaraq dövriyyədə olacaq və tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcək.

2023-cü il mayın 10-dan Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Mərkəzi Bankı ölkəmizin tarixində ilk dəfə olaraq yüksək əyarlı Azərbaycan qızılından hazırlanmış investisiya məqsədli pul nişanlarını tədavülə buraxıb. Eyni zamanda Mərkəzi Bank ənənəsinə sadiq qalaraq Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik tarixinin əbədiləşdirilməsi məqsədilə yubiley pul nişanlarını da tədavülə buraxıb. Bu pul nişanları xüsusi dövlət tədbirləri üçün nəzərdə tutulub. Bu yubiley və investisiya məqsədli pul nişanları Böyük Britaniyanın "The Royal Mint" şirkətində ən yüksək beynəlxalq standartlara uyğun istehsal edilib. Pul nişanlarının əsas dizayn elementləri kimi ön tərəfində Ulu öndərin portretinin profil görüntüsü, imzası və "Heydər Əliyev" yazıları, arxa tərəfində isə "Azərbaycan Respublikası" sözləri, Dövlət Gerbinin təsviri, pul nişanının nominalı və milli naxışlar əks olunub.

Bu il Azərbaycan Mərkəzi Bankı tərəfindən yenilənmiş 1 qəpiklik metal pul nişanları tədavülə buraxılıb. Tədavülə buraxılan yenilənmiş 1 qəpiklik metal pul nişanının arxa tərəfində yeni dizayn elementləri kimi Dövlət Gerbi, eləcə də pul nişanının istehsal ili əks olunub. Yenilənmiş 1 qəpiklik metal pul nişanının digər dizayn elementləri və texniki parametrləri hazırda tədavüldə olan eyni nominallı metal pul nişanına müvafiq olaraq dəyişməz saxlanılıb. Yenilənmiş 1 qəpiklik metal pul nişanı hazırda tədavüldə olan eyni nominallı pul nişanları ilə paralel olaraq dövriyyədə olacaq.

Ölkəmizdə ilk dəfə olaraq tədavülə buraxılan investisiya məqsədli pul nişanlarının satışı və geri alışı Mərkəzi Bank tərəfindən həyata keçirilir. Beynəlxalq təcrübəyə uyğun olaraq bu pul nişanları uzunmüddətli investisiya aləti və əhalinin yığım vasitəsi kimi istifadə olunması məqsədilə yüksək əyarlı qızıldan hazırlanmış və buraxılış limitinə məhdudiyyət qoyulmadan tələbə uyğun istehsal edilərək tədavülə buraxılır. İnvestisiya məqsədli pul nişanları 1 Oz (31.1 qr.), 1/2 Oz (15.55 qr.), 1/4 Oz (7.78 qr.), 1/10 Oz (3.11 qr.) çəkilərdə tədavülə buraxılıb. Yubiley və investisiya məqsədli pul nişanları nominal dəyərləri ilə ölkə ərazisində qanuni ödəniş vasitəsidir.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı Eldəniz Əmirov "Yeni Müsavat"a fikirlərini bildirib**: "Manatın dövrünü iki hissəyə bölmək olar. Birinci manat 1919-1923-cü illər arasında mövcud olmuş, ikinci manat 1992-2006-cı illərdə, üçüncü manat isə 2006-cı ildən sonrakı dövrü əhatə edir. Məhz bugünkü manatımız 2006-cı ildə yenidən, yeni re-denominasiyadan sonra olan manatdır. İkinci manat məhz 1992-ci ilin avqustunda sovet rublunu əvəz etdi. 10 manatın bir manat məzənnəsi ilə. Davamlı olaraq da artıq 2005-ci ilə qədər də neft hasilatının artması, başqa sözlə, mədən sənayesinin inkişafı və bu istiqamətdə gedən digər iqtisadi artımlar hesabına manat getdikcə güclənməyə başladı. 2005-ci ildə artıq bir dollar 4600 manata yaxın idi. Bu isə denominasiyanı qaçılmaz edirdi. Buna görə də artıq 2006-cı il yanvarın 1-dən başlayaraq bir yeni manatın beş min köhnə manatı əvəzləməsi, yəni birin beş minə nisbəti ilə denominasiya prosesi reallaşdırıldı. Bugünkü manatın dövrü 2006-cı ilin 1 yanvarından başladı. Həmin dövrdə əsginaslar buraxıldı, demək olar ki, fərq olmadı. Yalnız 12 il sonra 200 manatlıq dövriyyəyə buraxıldı. 2021-ci ildə isə artıq xəritə əsginası deyə 500 manatlıq dövr**iyyəyə buraxıldı".**

**Ekspert manatın milli valyutalar arasında möhkəmliyi ilə bağlı məsələyə də toxundu:** "Möhkəmlik ifadəsi beynəlxalq statistik reytinqlərdə daha çox milli valyutaların reytinqi olaraq göstərilir. Əsasən də reytinqlər dollarlara görə sıralanır. Dünya pulu olan dollar və istər ehtiyatların saxlanılması baxımından, istər ticarətin edilməsi baxımından, daha çox üz tutulan və dayanıqlı qəbul edilmiş vəsait milli valyuta olan dollar olduğundan məhz reytinqlər də dollara görə nizamlanır. Məsələn, hətta "Forbes" jurnalı da dünyanın ən güclü valyutalarını sıralayarkən dolları 10-cu yerdə göstərib. Ona görə ki, bir dollar, bir bərabərdir bir nisbətində götürülür. Bu zaman birinci yerdə Küveyt dinarı gəlir, daha sonra Bəhreyn, Ömər, İordaniya, Britaniya və s. kimi sıralanır. Bu reytinqdən dolayı Azərbaycan manatı 226 milli valyuta arasında 68-ci yerdədir. Ümumiyyətlə, dünyada 226 milli valyuta arasında 68-ci yerdədir. Gürcüstan milli valyutası 77-ci, Türkiyə milli valyutası 133-cü, Rusiya milli valyutası 177-ci, İran isə ümumiyyətlə milli valyutalar arasında ən sonuncu - 226-cı yerdə qərarlaşıb".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Ermənistanın Naxçıvan təxribatının pərdəarxası - məkrli ssenari

## Muxtar respublikanın iki dəfə atəşə tutulması İrəvana baha başa gələ bilər; Paşinyanın hiyləgər planı, yoxsa sülh istəməyən revanşistlərin təxribatı? - rəylər

**Naxçıvan istiqamətində mövqelərimiz növbəti dəfə atəşə tutulub.**

Bu barədə Müdafiə Nazirliyindən verilən məlumatda bildirilib ki, avqustun 15-i saat 18:10 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Gənzə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub.

“Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb”, - məlumatda vurğulanıb.



Bundan təxminən 9 saat sonra Ermənistan Naxçıvana yenə də atəş açıb. Avqustun 16-sı saat 03:20 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

Son bir neçə ayda Ermənistan Naxçıvan istiqamətində artıq neçənci dəfədir ki, təxribat törədir. Atəş açmaqla yanaşı, Naxçıvanla sərhəddə vaxtaşırı təlimlər keçirirlər, ora qoşunlar cəmləşdiriblər və s. Bütün bunlarla Ermənistan nə demək istəyir? Qarabağda başı əzilən düşmən Naxçıvana “diş qıcamaqda” davam edərsə, növbəti dəfə dəmir yumruq işə düşməlidirmi?

**Siyasi şərhçi Heydər Oğuz Musavat.com-a açıqlamasında bildirib ki, Naxçıvan Muxtar Respublikasının ən qorunaqlı yeri Ordubad rayonudur:** “Hətta I Qarabağ döyüşlərinin ən ağır zamanlarında Naxçıvanda erməni hücumlarına qarşı ikinci cəbhənin məhz Ordubaddan açılması ciddi şəkildə müzakirə olunmuş və o vaxt Naxçıvan Ali Məclisinin sədri vəzifəsini icra edən mərhum Heydər Əliyevlə AXC arasında ilk ziddiyyət də məhz bu mübahisələrdən qaynaqlanmışdı. Naxçıvan Xalq Cəbhəsinin ikinci cəbhə açmaq təklifinə təxribat kimi baxan Heydər Əliyev bu təklifi ermənilərə Naxçıvanın işğalına yol açmaq üçün zəmin yaradacağını düşünmüş və ordu quruculuğunu tamamlamadan ikinci cəbhə açmaq təşəbbüslərinə qarşı çıxmışdı. Zaman göstərdi ki, Heydər Əliyev bu məsələdə kifayət qədər haqlıdır. Geosiyasi vəziyyəti nəzərə almadan və ordu quruculuğunu tamamlamadan Ordubaddan Megri istiqamətində hücuma keçmək həqiqətən də böyük itkilərlə nəticələnə bilərdi. Özəlliklə o səbəbdən ki, ermənilər o zaman Rusiya tərəfindən ciddi şəkildə müdafiə olunur, bəzən onların əvəzinə savaşırdılar. Azərbaycan ordu quruculuğuna ilk növbədə güclü iqtisadiyyatını qurmaqla başlamalı idi və əldə etdiyi gəlirlər hesabına özünün müdafiə sistemini formalaşdırmalı idi. O dövrlərdən 2020-ci ilə qədər keçən 30 il ərzində ölkəmiz məhz bu strategiyanı əldə rəhbər tutub II Qarabağ döyüşləri ilə tarixi zəfərini qazanmışdı”.

**Heydər Oğuzun fikrincə, 1990-cı illərdə Naxçıvanda ikinci cəbhənin açılması fikrinin müzakirə edilməsi muxtar respublikanın, özəlliklə də Ordubadın geofiziki özəlliklərindən irəli gəlirdi:** “Belə ki, Naxçıvan-Ermənistan sərhədləri keçilməsi çətin olan dağ silsilələrindən təşəkkül tapır. Kiçik Qafqaz dağlarının ən uca zirvələri Ermənistanla Naxçıvan arasındakı sərhəddə yerləşir. Əsasən 2 mühüm dağ silsiləsini özündə birləşdirən bu sərhədlərdə ən böyük zirvələr isə Ordubadda yerləşir. Söhbət Zəngəzur dağ silsiləsindən gedir. Məlum olduğu kimi, Zəngəzur silsiləsinin 3 böyük zirvəsi var. Bunlardan biri Şahbuzda yerləşən Salvartı dağı (3161,8 m), digərləri isə Ordubad ərazisinə düşən Qapıcıq dağı (3905,2 m) və Soyuq dağıdır (3147,5 m). Hər 3 dağ bölgənin ən hündür zirvələridir və Naxçıvanın şimal-şərqindən - şərqinə qədər ərazilərdə təbii istehkamlar yaradır. Üstəlik, sərhədin o tərəfindəki Ermənistanın Zəngəzur bölgəsi də dar məkanda yerləşir. Eni orta hesabla 30 km, uzunluğu isə 120 km. Cəmi 4000 kv. km-lik sahəni əhatə edən və bütün geo-fiziki üstünlüyü bizim tərəfimizdə olan bu tarixi ərazilərimizin işğaldan qurtarılması Azərbaycanın Ordusu üçün çətin deyil. Dediyim kimi, hətta əlimizdə ov tüfəngindən başqa heç bir silahın olmadığı 1990-cı illərdə belə, naxçıvanlılar bu barədə ciddi-ciddi düşünürdülər. Sadəcə, o dövrün geosiyasi şərtləri bu arzumuzu reallaşdırmağa imkan verməmişdi”.

**“O ki qaldı Ordubadın Gənzə kəndinin hədəfə çevrilməsinə, ermənilər bu xəyala düşməklə tarixin ən böyük səhvini edirlər”, - deyə şərhçi bildirdi:** “Çünki Gənzə bayaq qeyd etdiyim Qapıcıq və Soyuq dağlarının tam ortasında yerləşir. Bu baxımdan, Gənzəni Naxçıvanın ən alınmaz qalası da hesab etmək mümkündür. Onu ələ keçirməyi düşünən ermənilər öz ayaqlarına güllə sıxmış olarlar”.

Elədirsə, sual ortaya çıxır: ermənilər Gənzəni atəşə tutmaqla nəyə nail olmaq istəyirlər?

**Həmsöhbətimizin fikrincə, ermənilərin bu xülyalarının yalnız bir izahı var:** “Paşinyan hakimiyyəti Ermənistan ordusuna nəzarət edə bilmir və Rusiyaya bağlı olan bu ordu Paşinyanı bizə döydürmək istəyir. Əks halda, onlar daha zəif nöqtəmiz olan Sədərək və ya Şərur ərazisini atəşə tutmaqla bizə xox gələrdilər. Baxmayaraq ki, bu ərazilər də 1990-cı illərdəki qədər zəif nöqtə deyillər. Sədərəyin geosiyasi əhəmiyyəti və Türkiyə ilə Azərbaycanı birləşdirən yeganə xətt üzərində yerləşməsi bu rayonu təkcə bizim üçün deyil, qardaş ölkə üçün də böyük strateji əhəmiyyətli edir. Hətta ermənilərin arxasında dünyanın hansı gücünün dayanmasına baxmayaraq, Türkiyə bu təcavüzə seyrçi qalmaz, qala bilməz. Əks halda, bu, Türkiyənin böyümə və Orta Asiyaya açılma strategiyasının çökməsi mənasına gələr. Şərura gəlincə, 2018-ci ilin may ayında Azərbaycan Ordusunun keçirdiyi Günnüt əməliyyatı nəticəsində Qızılqaya yüksəkliyi işğaldan azad olunmuş və Şərur ətrafındakı bütün ərazilər bizim nəzarətimizə keçmişdi. Həmin əməliyyat nəticəsində İrəvan-Yeğeqnadzor-Gorus avtomobil yoluna da artıq Azərbaycan Ordusu nəzarət edir. Hesab edirəm ki, II Qarabağ döyüşlərinin ən mühüm açarı da bu əməliyyatla bağlıdır. Çünki Azərbaycan Ordusu Günnüt əməliyyatı nəticəsində İrəvandan Xankəndi və Gəncə yolları faktiki olaraq nəzarət altına ala bilmiş və Qarabağa göndərilən bir çox silahları mənzil başına çatmamış zərərsizləşdirmişdir. Qısası, Naxçıvanın heç bir ərazisi ermənilər üçün asan uda biləcəkləri loxma deyil və buna cəhd etmələri körpə uşağın öz boğazından böyük tikəni udarkən boğulması effekti yarada bilər”.

**Ermənilərin Naxçıvana hücumları BMT Nizamnaməsinin 51-ci maddəsinin dövlətlərə verdiyi təcavüzü yerində susdurmaq hüququnu ortaya çıxardığını düşünən siyasi şərhçi Azərbaycan dövlətinin bu ehtimalı da nəzərdən keçirdiyinə inanır:** “Bilirsiniz ki, bu maddəyə görə, dövlətlərin özünü müdafiə etmək hüququ var və bəlkə də rəsmi Bakı bu istiqamətdə addım atmaq üçün geosiyasi vəziyyətin xeyrimizə dəyişilməsini gözləyir”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bununla bağlı sərt bəyanatın qəbul edilməsinin tərəfdarıdır:** “Ermənistanın Naxçıvan istiqamətində iki dəfə ard-arda atəşkəsi pozmasını belə izah etmək olar ki, ya bu, baş nazir Nikol Paşinyanın ona ötürülən hiyləgər planının tərkib hissəsidir, ya da bunu Ermənistan ordusunda Azərbaycanla sülh istəməyən təxribatçılar həyata keçirir. Birinci variantda Paşinyan Azərbaycanla sülh imzalanmaması üçün süni gərginlik yaradıb yeni ağalarından birinin - Fransanın əmrini yerinə yetirə bilər. Paris oyundankənar vəziyyətdə qaldığına görə Ermənistanın Azərbaycanla sülh sazişi imzalamasını istəmir, çünki bu halda İrəvanın Bakı və Ankara ilə münasibətlərinin normallaşması prosesi başlayacaq. İkinci variantda Ermənistan ordusundakı, Paşinyanın da qeyd etdiyi kimi, "5-ci kolon" atəşkəsi pozmaqla gərginliyin artmasına çalışır. Bizim üçün bu variantlardan hansının gerçək olduğunun fərqi yoxdur. Ermənistana Nikol Paşinyan cavabdehdir və o bilməlidir ki, atəşkəsin intensiv pozulmasının onun və ölkəsi üçün ağır nəticəsi olacaq. O, Fransanın deyil, ölkəsinin maraqlarından çıxış etmədiyi və ordusunda qayda-qanun yaratmadığı halda Azərbaycan Ordusunun növbəti zərbəsi ilə üzləşəcək. Hesab edirəm ki, Azərbaycan Müdafiə Nazirliyi ilə Xarici İşlər Nazirliyinin birgə sərt bəyanatı yayımlanmalı və atəşkəsin pozulmasına görə Ermənistanın hansı durumla üzləşəcəyi İrəvana aydın izah edilməlidir".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**




## Baş prokuror: “Oxçuçayın çirkləndirilməsi davam edir”

**Oxçuçayın dağ-mədən sənayesinin tullantıları ilə çirkləndirilməsi davam edir.**

“Report”un yerli bürosu xəbər verir ki, bu sözləri baş prokuror Kamran Əliyev avqustun 16-da Naxçıvanda keçirilən “Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi” mövzusunda" elmi-praktiki konfrans zamanı qeyd edib.

O, Xankəndidən sonra növbəti konfransın Naxçıvanda keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini söyləyib: “Uzun müddət davam etmiş Azərbaycan və Ermənistan münaqişəsinin gedişatında təəssüflər olsun ki, Araz çayı sahilyanı və dib çöküntüləri kimyəvi və radioaktiv tullantılarla məqsədyönlü olaraq çirkləndirilib və hazırda da bu proses davam etdirilir. Hazırda da Ermənistan ərazisindən keçməklə ölkəmizə daxil olan çayların xüsusən də Araz və onun qolu olan Oxçuçayın dağ-mədən sənayesinin tullantıları ilə çirkləndirilməsi davam edir”.



# 300 manıs

Zamin HACI
zaminhaci@gmail.com

**İctimai Televiziya qərara gəlib ki, növbəti “ Uşaq Avroviziya” yarışmasına ölkəmizdən heç kim göndərilməsin. Sən demə, bu yarışın reytinqi bizdə çox az imiş - verilişə baxan olmur.**

Açığı, xəbər başlığını ilk görəndə bir az qorxdum, elə bildim ümumiyyətlə “Avroviziya”dan çıxırıq. Qardaş Türkiyədə belə təcrübə yaşanmışdır. Bizim üçünsə bu musiqi yarışması az qala dövlətçilik əhəmiyyəti daşıyır. İmkan və fürsət olsa “Avroviziya”nı konstitusiyamıza daxil edərdik. Misal üçün, belə: “Xalqın musiqi yarışına qatılmaq hüququ var və bu hüquq yalnız referendum yolu ilə dəyişdirilir”.

Sonra içini oxudum, ürəyim soyudu. Yarışın balacasından çıxırıq, o da müvəqqəti. Bəlkə o biri il göndərdik. Niyə də yox? Birdən hansısa uşaq çıxdı, istedadı ilə dünyanı heyran qoydu.

Sözgəlişi, İTV-nin şefi İsmayıl Ömərov olan zamanlarda bu uşaq-muşaq Avroviziyasına tragikomik namizəd seçilmişdi: İsmayıl müəllimin dost-doğmaca nəvəsi. Əla seçim idi. Uca millətimiz xeyli şad olmuşdu. Uşaq neçənci yer tutdu, İsmayıl müəllim o vaxtdan hara yox olub, görəsən dünyaya nöş gəlir insan - bu kimi məsələləri də açığı, nə yadda saxlamışam, nə bilirəm. Bilgisizlik jurnalist üçün biabırçı faktdır, hörmətli oxuculardan üzr istəyirəm. Çalışacam öyrənim, yazım.

Ancaq bizim aramızda ala qarğanın bala çıxartması mümkün deyil, gəl gör musiqi yarışı olsun. Odur, deputatlardan biri çarpayıda uzanıb rezinlə idman edib (açığı, çoxmənalı cümlə alındığını başa düşürəm, qəsdən olmadı, öz-özünə alındı Allah haqqı; ermənilər də adam deyil), millət cuşə gəlib, hamı deputatı ələ salır. Deyirlər bizə ciddi namizədlər lazımdır. Guya deputatlığa namizəd mütləq kostyumda olmalıdır, qarnı çıxmalıdır, sirkə əvəzinə də viski və tut arağı içməlidir.

İnsafən, seçicilər də yanılmır, çünki sirkə içib idman eləyən deputat sabah bizə yolu nə ilə çəkəcək, qazı, suyu haradan alacaq, hələ uşaq pulunu-zadı demirəm. Bazburutlu adam lazımdır.

Eyni zamanda xalqımızın siyasi xadimləri də nədənsə idmanın qəribə, ekzotik üsullarına əl atırlar. Məsələn, indiyəcən ən azı 3 siyasətçimiz canlı efirdə təpəsi üstdə dayanmışdır (barı o vəziyyətdə breyk-dans oynasalar). Millət də fikirləşir ki, bunlar niyə kəlləmayallaq olmuşlar, heç düz dura bilmirlərmi? Hərçənd karateçi deputatımız olub. Lakin bir dəfə də iclasda durub fənd göstərməyib. Daha o istedad sənin nəyinə lazımdır? Gor evinə aparacaqsan?

Qayıdaq uşaq manıs yarışmasına. Elə o sahədə efirin reytinqsiz qalmağı qəribə hal deyilmi? Azərbaycanda ən geniş yayılmış profil məktəbləri, sizcə, nə üzrədir? Riyaziyyat? Tarix? Fizika? Bəlkə biologiya? Ya idman? Tapmadınız. Ən çox musiqi məktəbimiz var. Mən bir dəfə ərinmədim, oturub saydım: 300-dən çox uşaq musiqi məktəblərimiz ortaya çıxdı. Hələ yorulub 300-də dayandım, bəlkə daha çox idi. Bir az da rəqəm xoşuma gəlmişdi: 300 spartalıya qarşı 300 manıs...

Və zəhləmgetmiş jurnalistlər demişkən, “belə olan şəraitdə” uşaq mahnı yarışına baxanların yoxluğu qəribədir.

Hamı musiqiyə gedir, lakin musiqi ilə maraqlanan yoxdur. Hamı güləşir, güləşçi yoxdur. Hamı zarafatlaşır, yumor yoxdur.

Yazını isə bir ata sözümüzlə bitirirəm, mövzuya çox da dəxli yoxdur, kefim istədi, yazıram bura. Özü də mən adətən ata sözlərini epiqraf kimi verirəm, bu dəfə qoy ipoqraf olsun (ipoqraf yazının sonunda verilən sitatdır). Buyurun: “Ac acı dalayar, tox toxu yalayar”.

Məncə, gözəl sözdür və xalqı bolluğa səsləyir. Namizəd olsan hətta plakata yazmaq olar: “Mənə səs versəniz sizi yalayaram”.

**Qəzzada atəşkəsin elan edilməsi ilə bağlı Qətərdə danışıqlar baş tutub. “Yeni Müsavat”ın xarici siyasət şöbəsi yazır ki, Dohada keçirilən görüşdə Qətər, ABŞ, Misir və İsrail nümayəndələri iştirak ediblər. Maraqlıdır ki, ABŞ mediası qızışdırıcı mövqeli yazılarla çıxış edir. “İsrail Qəzza zolağında HƏMAS-a qarşı hərbi cəhətdən əlindən gələn hər şeyi edib və qruplaşma ötən ilin oktyabrın 7-dəki miqyasında hərəkat planlaşdırmaq və ya həyata keçirmək iqtidarında deyil”. Bu barədə The New York Times məlumat yayıb. Eyni zamanda, nəşrin mənbələri qeyd edib ki, İsrail heç vaxt qrupu tam məhv edə bilməyəcək və Qəzzada HƏMAS tərəfindən saxlanılan 115 ölü və ya diri girovun azad edilməsini təmin etmək üçün razılaşma lazımdır.**

# Qəzzanın yarıdan çoxu xarabalığa çevrilib, İsraillə HƏMAS kritik danışıqlar aparır...

## Dohada gedən atəşkəs müzakirələrində irəliləyiş gözlənilir; bu danışıqlar kimlərə sərf etmir - analitiklərin rəyi




Qəzetin xəbərinə görə, amerikalı general Cozef Votel ABŞ Mərkəzi Komandanlığına “İsrail HƏMAS-ı məğlub etməyi, onun bir sıra liderlərini öldürməyi və 7 oktyabrdan əvvəl İsrail üçün təhlükəni əhəmiyyətli dərəcədə azaltmağı bacardı” deyib və HƏMAS-ın “saylarının azaldığını” bildirib. “HƏMAS böyük ölçüdə tükənib, lakin məhv edilməyib və israillilər heç vaxt HƏMAS-ın tam məhvinə nail ola bilməzlər” - deyə MKİ-nin keçmiş yüksək rütbəli rəsmisi, Yaxın Şərqdə xidmət etmiş Ralf Qoff qəzetə bildirib. Eyni zamanda ABŞ Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi “Məlumatlar İranın İsrailə hücum etmək niyyətindən əl çəkmədiyini göstərir”, - deyə bildirib. Onun sözlərinə görə, kəşfiyyat məlumatları İranın İsrailə potensial hücum təhdidindən əl çəkmədiyini göstərir. Kirbi qeyd edib ki, ABŞ vəziyyəti yaxından izləyir: “Doha danışıqlarında Qəzza zolağında atəşkəs razılaşması əldə olunmayacaq, lakin Qətərdəki görüş ümidverici başlanğıcdır”.

**“Qəzzanın üçdə iki hissəsi dağılıb”. Fələstin lideri Mahmud Abbas Türkiyə Böyük Millət Məclisində (TBMM) çıxışı zamanı deyib. Fələstin lideri bildirib ki, ərazidəki məktəblər, məscidlər və digər tikililər məhv olub:** “ABŞ isə bütün bunlara qarşı susur, veto hüququndan istifadə edir. Təəssüf ki, ABŞ-ın dünyaya gətirdiyi fəlakət davam edir”. Fələstin lideri bəyan edib ki, Qəzzaya gedəcək. “Ölüm təhlükəsinin olmasına baxmayaraq, bu qərarımdan geri dönməyəcəyəm”, - Abbas bildirib.

Bu arada ABŞ prezidentliyinə namizəd Donald Tramp dünən İsrailin Baş naziri Benyamin Netanyahuya zəng edib. “Axios” ABŞ-dakı mənbələrə istinadla məlumat yayıb. Bildirilib ki, tərəflər Qəzzadakı girovların vəziyyətini və atəşkəs razılaşmasını müzakirə edib. Məlumata görə, Trampın zəngi Netanyahunu atəşkəs sazişinə razılıq verməyə təşviq etmək məqsədi daşıyıb. İsrail baş nazirinin dəftərxanası tərəflər arasındakı telefon zəngini təkzib etməyib. Bütün bunların fonunda yekunda biz nələrin şahidi ola bilərik? Atəşkəs baş tutarsa, növbəti mərhələdə hansı işlər görülməlidir? Tərəflər Qəzzada savaşı dayandıracaqlarmı?

**Siyasi icmalçı Aqşin Kərimovun sözlərinə görə, ABŞ Yaxın Şərqdəki genişmiqyaslı eskalasiya risklərini özünə qarşı ölümcül diplomatik-siyasi, hərbi və iqtisadi qisas silsiləsinə təkan verən proses kimi qiymətləndirir:** “Ağ Evin Yaxın Şərq regionunda yüksək profilli qorxusu onun Çin və Rusiya maraqları önündə uduzması riski ilə əlaqədar inkişaf edir. Çünki Yaxın Şərqdə münaqişələrin qızışması və müharibə arealının genişlənməsi Rusiya və Çinin regiondakı səviyyəsini qaldıran amilə çevrilir. ABŞ indi ehtimal olunan təhlükələrin tamamilə önlənməsini deyil, onun idarəetmə pultunu əlinə almaq məharətinə yiyələnməyi arzulayır”.

**Təhlilçi düşünür ki, indi HƏMAS özünə yeni lider kimi Yəhya Sinvarı seçdi:** “Burada məqsəd təbii ki, İsrailə qarşı kampaniyanın Qəzzada davam etdiriləcəyini göstərməkdir. Sinvar İsrailə qarşı ötən ilin oktyabrında başlanan hücum əməliyyatlarının həmmüəlliflərindən biridir və HƏMAS buradan yola çıxaraq, Təl-Əvivə qisas üçün barmaq silkələyir. Bütün bunlara baxmayaraq, İsrail öz kəşfiyyat imkanlarına və keçirdiyi əməliyyatların motivlərinə görə hər dəfə təəccübləndirməyi bacarır. Bu baxımdan, Sinvarın da həyatı təhdid və təhlükə altındadır və məqam yetişən kimi, İsrail HƏMAS liderinin öldürülməsi fürsətini əldən verməyəcək”.

**Siyasi ekspert Ramiyə Məmmədova Qəzzada müharibənin dayanacağını gözləmir:** “Birincisi, İsrail müttəfiqlərini eşitmir və HƏMAS-ın demilitarizasiya olunmasını qarşısına hədəf qoyub, ikincisi, Fələstin təşkilatı girovları qaytarmır, üçüncüsü isə Yəhya Sinvar kimi radikal birinin Siyasi Büronun rəhbəri seçilməsi HƏMAS-ın mübarizəni davam etdirəcəyi anlamına gəlir. Bu nöqteyi-nəzərdən Doha danışıqları Qahirə toplantılarının aqibətini yaşaya bilər. Digər tərəfdən isə müharibənin uzanması Vaşinqtonun maraqlarına xidmət etmir. Onun Ukrayna cəbhəsinə diqqətini parçalayır. Odur ki, ABŞ atəşkəs üçün çalışır”.

**R.Məmmədova Qəzzada atəşkəs olsa belə, müvəqqəti xarakter daşıyacağını gözləyir:** “HƏMAS Haniyənin qətlindən az sonra atəşkəsə getməz. Bu, İsrailin tələblərinə boyun əymək deməkdir. Yəhya Sincar isə Fələstin rəhbəri Mahmud Abbasla eyni mövqedə deyil. Bu da ciddi parçalanmadan xəbər verir. Yeni Qəzzada atəşkəsin əldə olunması HƏMAS-İsrail danışıqlarından asılı olduğu üçün Mahmud Abbas hökumətinin təsir imkanları yoxdur”.

❑ Emil SALAMOĞLU,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 146 (8519) 17 avqust 2024

**Faktiki olaraq ATƏT-in Minsk Qrupu fəaliyyətdə deyil, çünki buna heç bir ehtiyac, zərurət yoxdur. Bu mənasız qurum vaxtilə Qarabağ məsələsinin həllində vasitəçilik üçün yaradılmışdı, ancaq 30 ilə yaxın vaxtda heç bir uğuru, faydası olmadı. Azərbaycan 2020-ci ilin payızında 44 günlük müharibə və 2023-cü ilin sentyabrında 1 günlük antiterror əməliyyatı ilə ərazi bütövlüyünü, suverenliyini tam təmin edib. Artıq Qarabağ məsələsi deyilən bir anlayış yoxdur.**

# "Ölmüş" Minsk Qrupunun sülhə nə dəxli - İrəvana Bakıdan cavab

## Azər Badamov: "Ermənistanın bu hərəkəti sülh müqaviləsini imzalamaq istəməməsindən irəli gəlir"



Ancaq maraqlıdır ki, Qərbdə bəzi dairələr Minsk Qrupunu xortlatmaq üçün çabalar göstərir. Bu absurd işə artıq Ermənistanı da qoşublar.

Faktiki olaraq heç bir ehtiyac olmadığı halda, ABŞ-ın media orqanı olan "Azadlıq Radiosu"nun erməni bölümü Ermənistan XİN-ə Azərbaycanın Minsk Qrupunun buraxılmasını sülh müqaviləsinin imzalanması üçün ilkin şərt hesab edib-etməməsi, İrəvanın niyə Minsk Qrupunun buraxılmasına razı olmaması və yaxın gələcəkdə Ermənistanın fikrini dəyişəcəyi və Bakı ilə birlikdə onun buraxılması haqqında ATƏT-ə Birgə Bəyanat təqdim etməsinin mümkün olub-olmaması barədə sorğu göndərib.

**Ermənistan XİN də belə cavab verib ki, ATƏT-in Minsk Qrupunun məsələsinə sülh müqaviləsinin imzalanması kontekstində baxıla bilər:** "Ermənistan tərəfi Minsk prosesinin davam etdirilməsi məsələsinə münasibətlərin hərtərəfli nizamlanması və hər şeydən öncə sülh müqaviləsinin bağlanması kontekstində baxa bilər".

Bir müddət öncə isə Ermənistan parlamentinin "Vətəndaş müqaviləsi" partiyasından olan deputatı Armen Xaçatryan qrupun yalnız sülh müqaviləsi imzalandığı təqdirdə ləğv ediləcəyinə dair fikir söyləmişdi.

Ermənistanın bu cür mövqeyi gülüncdür. Faktiki olaraq Minsk Qrupu ölüb, onun missiyası bitib və faktiki fəaliyyətsizdir. Ən əsası, bu mənasız qrupun sülh məsələsinə nə aidiyyəti var? Görünən budur ki, Ermənistanı xarici təsir dairələri indi də belə bir iddia ilə çıxış etməyə məcbur edirlər, məqsəd sülhdən yayınıb belə oyunlar oynamaqdır.

Bakının bu məsələyə reaksiyası nədir?

**VI Çağırış Milli Məclisin deputatı Azər Badamov burada əsas niyyətin sülh müqaviləsinin imzalanmasını uzatmaq olduğunu söylədi:** "Ermənistan sülh müqaviləsi imzalamaqdan yayınmaq istəyir. Ona görə bu müqavilənin imzalanması üçün mane olan iki əsas məsələnin həll olunmasına çalışmır. Əslində hər iki məsələ beynəlxalq hüququn tələbidir. Birinci məsələ Ermənistanın konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddalarından əl çəkilməsidir. Çünki beynəlxalq hüquqda suveren dövlətlərdən bir-birinin ərazi bütövlüyünə hörmət edilməsi tələb olunur. Digər bir məsələ isə Minsk Qrupunun ləğv edilməsi ilə bağlı ATƏT-ə birgə müraciətin olunmasıdır. "Azadlıq Radiosu"na verdiyi açıqlamada İrəvan Minsk Qrupunun ləğv olunmasını sülh müqaviləsinin imzalanması ilə bağlayır. Təbii ki, İrəvanın bu hərəkəti sülh müqaviləsini imzalamaq istəməməsindən irəli gəlir. Çünki Minsk Qrupu 28 il heç bir iş görmədi və nəticədə Azərbaycan müharibə yolu ilə öz ərazilərində suverenliyi bərpa etməyə məcbur oldu. İndi isə nə "Dağlıq Qarabağ" var, nə də ki, Qarabağda erməni. Ermənilər Azərbaycan vətəndaşlığını qəbul etmək istəmədiklərindən ərazilərimizi tərk etdilər. Beləliklə, Minsk Qrupu lazımsız bir missiyaya çevrildi. Bundan əlavə, Minsk Qrupundakı üç dövlətin özləri bir qrupda təmsil oluna bilməzlər. Belə ki, ABŞ və Fransa Rusiya ilə düşməndir və onlar özləri bir yerdə ola bilməyəcəklərini dəfələrlə açıq şəkildə bəyan ediblər. Ermənistan və Qərbin bəzi dairələri isə ölünü qəbirdən çıxardıb yenidən can vermək istəyir. Amma elmdə elə bir texnologiya yoxdur ki, ölü yenidən qaytarıla bilinsin. Ona görə də Ermənistanın və onun arxasında dayanaraq Ermənistanı revanşizmə hazırlayanların çoxdan dəfn olunmuş Minsk Qrupuna yenidən can vermək cəhdləri, sadəcə olaraq, sülh müqaviləsinin imzalanmasından yayınmaq və regionda yenidən gərginliyi yaratmaq istəklərindən başqa bir şey hesab etmirəm. Rəsmi Bakının mövqeyi dəyişilməz qalır. Belə ki, ölkə başçımız da Minsk Qrupunun tarixin arxivinə göndərildiyini və onlar üçün görməyə bir işin qalmadığını dəfələrlə bəyan edib. Hətta İkinci Qarabağ müharibəsi başa çatandan sonra Minsk Qrupunun həmsədrləri ölkəmizə gələndə onlara sual verilərək "bundan sonra nə işlə məşğul olmaq istəyirsiniz" deyiləndə onların özləri çaşbaş qalmış və gələcəkdə nə iş görə biləcəklərini deyə bilməmişdilər. Çünki onların görəcəyi işi özümüz görmüşük. Daha onların Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasında görəcəkləri heç bir iş yoxdur. Bizim kənardan ağıl verənlərə ehtiyacımız yoxdur. Çünki aramızda ikili danışıqlar platforması meydana gəlib və bu platforma effektiv fəaliyyət göstərərək pozitiv nəticələr əldə olunub. Ermənistan isə çoxdan dəfn olunmuş Minsk Qrupundan danışmaq əvəzinə Azərbaycanın tələb etdiyi iki əsas məsələni icra etməli və regiona sülhün və əməkdaşlığın gəlməsini tezləşdirməyə çalışmalıdır".

**Ədalət, Hüquq və Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı Azərbaycanın Minsk Qrupuna heç bir ehtiyacı olmadığını qeyd etdi:** "ATƏT-in Minsk Qrupu çoxdan ölüb və xalqımız onu çoxdan dəfn edib. 30 il bu qurumun işi Azərbaycan torpaqlarının erməni işğalında qalmasına xidmət edib. Minsk Qrupunun məqsədi o idi ki, Qarabağ münaqişəsi dondurulmuş vəziyyətdə qalsın və uzun illərdən sonra Azərbaycan xalqı Qarabağı unutsun. Yeni nəslimiz, ümumiyyətlə, Qarabağı tam unutsun. Bizim qətiyyən bu quruma ehtiyacımız yoxdur. Azərbaycan dövlətinin Ali Baş Komandanı İlham Əliyev xalqı bir orduya çevirərək 44 günlük Vətən müharibəsində Azərbaycanın tam ərazi bütövlüyünü təmin etməklə yanaşı, son 150 ildə Azərbaycanda özlərinə yuva qurmuş erməni separatçılarının kökünü kəsdi. Bu çox böyük bir hadisədir. Qarabağda bir erməni separatçısı yoxdur. Bütün beynəlxalq normalara uyğun addımlar atmışıq. Ermənistan və onları dəstəkləyən qüvvələr məqsədli şəkildə ATƏT Minsk Qrupunu sülh danışıqları prosesinə cəlb etməklə sülhün əldə olunmamasına çalışırlar. Məqsədləri budur. İstəmirlər ki, indiki vəziyyətdə sülh sazişi imzalansın. Vəziyyəti uzatmaqla vaxt qazanırlar. Ümid edirlər ki, Rusiyada Putin devrilə bilər və burada Qərbin adamı hakimiyyətə gətirilər. Bundan sonra Azərbaycanla növbəti müharibəyə başlasınlar. Yenidən Rusiyanın əli ilə Azərbaycan torpaqlarını işğal etsinlər. Bütün bunlar üçün bu gün onlara Minsk Qrupu lazımdır. Minsk Qrupu sülhə töhfə verməyəcək, əksinə, mane olacaq. Azərbaycan birmənalı şəkildə bu qurumu yaxına buraxmamalıdır".

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov Minsk Qrupunun saxlanılmasında Azərbaycandan başqa bu prosesdə iştirakçı olan hər bir dövlətin bu və ya digər şəkildə maraqlı olduğunu düşünür:** "Minsk Qrupunun dirildilməsində Azərbaycandan başqa bu prosesdə iştirakçı olan hər bir dövlət bu və ya digər şəkildə maraqlıdır. Çünki həmin dövlətlər, yəni Amerika, Fransa və Rusiya bununla gələcəkdə Azərbaycana, eləcə də bir-birinə, həmçinin Ermənistana təsir etmə imkanını əllərində saxlamaq istəyirlər. Bilirsinizmi, qurumlar bəzən ölü ola bilər. Amma sonrakı siyasi proses onların dirilməsinə gətirib çıxara bilər. Ermənistan düşünür ki, ehtimal edilən hər hansı bir yeni münaqişə zamanı Azərbaycana qarşı ona silah verərlər, bizim, yəni Azərbaycanın müttəfiqləri, xüsusilə Türkiyə neytrallaşdırılar, bununla da ermənilər Minsk Qrupunun dirilməsinə səbəb olarlar. Rusiya düşünür ki, bu qrup ona bu dəqiqə lazım deyil. Amma o da bu "şirkət"də təmsil edilir və bu, əslində regionda gələcək manevrlər üçün lazımdır. Erməni kartının ehtiyatda saxlanılması lazımdır. Fransa düşünür ki, bölgədə geosiyasi fəaliyyət imkanları kasad olsa da Minsk Qrupu vasitəsilə danışıqlar prosesində tərəf olar. ABŞ da həmçinin bunun vasitəsilə regionda iştiraka əlavə imkan əldə edər. Minsk Qrupu heç bir halda Azərbaycana lazım deyil. Azərbaycan Allahın izni ilə qələbə qazanıb, ərazi bütövlüyünü təmin edib. Hər hansı xarici aktorların ona qarşı ehtimal edilən birlik konfiqurasiyası Azərbaycana lazım deyil. Ona görə də Azərbaycan balanslı siyasətini davam etdirməlidir. Rusiya ilə qarşılıqlı normal tərəfdaşlıq əlaqələrini davam etdirməklə onun alternativ variantlara meyl etməsinin qarşısını almalıdır. Türkiyə ilə müttəfiqlik əlaqələrinin davamlı və dayanıqlı olmasına önəm verməlidir. Çünki Türkiyə Azərbaycana lazım olduğu qədər Azərbaycan da Türkiyəyə lazımdır. Azərbaycan-Türkiyə konfiqurasiyasının milli təhlükəsizlik əhəmiyyəti çox önəmlidir. İranla münasibətlərin eyni zamanda qarşılıqlı maraqlar və hörmət əsasında davamlı və dayanıqlı olması lazımdır ki, Ermənistan İran amilinə özü üçün xilas kimi baxmasın. İranla Ermənistan arasında xeyli vaxtdır ciddi soyuma var. Bir çox analitik bunu tutmaya bilər. Amma Ermənistanın ABŞ-la hərbi əməkdaşlığını genişləndirməsi İranı narahat edir. Bu narahatlığın "dərinləşməsinə" çalışmalıyıq. Türk dövlətləri ilə yeni, əlavə, paralel və şaxəli əməkdaşlıq konfiqurasiyaları qurmaq lazımdır. Bir sözlə, ATƏT Minsk Qrupunu kimsə diriltmək istəsə də, yeriyə bilməyəcəyi bir müstəvi ilə üz-üzə qoymaq lazımdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 146 (8519) 17 avqust 2024

# Çinlə birgə reallaşacaq nəhəng nəqliyyat layihəsi - Prezident mühüm anlaşmanı təsdiqlədi

## Azərbaycanın regional nəqliyyat, tranzit habına çevrilmək istiqamətində 10 ildən artıq müddətdə həyata keçirdiyi layihələrin uğurla nəticələnməsi üçün əlverişli şərait formalaşıb

**Xəbər verdiyimiz kimi, “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Çin-Avropa Dəmiryolu Ekspresi üçün Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutlarının inkişafı haqqında Anlaşma Memorandumu” təsdiqlənib. Avqustun 15-də Prezident İlham Əliyev bununla bağlı müvafiq Fərman imzalayıb.**

Fərmana əsasən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir.

Azərbaycan Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərməlidir.

Memorandum ölkələr arasında bu il iyulun 1-də imzalanıb. Onun qarşılıqlı əlaqələrin inkişafında, xüsusilə Azərbaycan üçün böyük əhəmiyyəti ola bilər. Belə ki, Çin hazırda beynəlxalq ticarət yollarının yenidən çizilməsi prosesinin başlıca oyunçularından biridir. Çindən Avropaya yükdaşımalar beynəlxalq ticarətin mühüm hissəsidir. Rusiyanın Ukraynaya təcavüzü ilə Avropanın Asiya və xüsusilə də Çinlə ticarətinin yeni - Rusiyadankənar ərazilərlə təşkili ən aktual məsələyə çevrilib. Ötən ilin payızından - Yəmən husilərinin Qırmızı dənizdə ticarət gəmilərinə hücumları başlanandan sonra bu məsələ daha da aktuallaşıb. Eyni zamanda Çin-Avropa ticarətinin Rusiya və Qırmızı dənizdənkənar yolu kimi Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə maraq on dəfələrlə yüksəlib. Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Avropa ölkələrinə qədər uzanan bu dəhliz həm də Orta dəhliz adlandırılır.

Avropa İttifaqı və ABŞ dəhlizin tamamən Çinin nəzarətində olmasına imkan verməmək üçün onun keçdiyi Mərkəzi Asiya dövlətlərinə diqqəti artırıblar. Mart ayında rəsmi Brüssel marşrutun zəif həlqələri olan Qazaxıstan, Özbəkistan və Qırğızıstanda infrastrukturla bağlı layihələrə 4,7 milyard avro ayırıb. Aİ-nin dəhlizinn inkişafına 10 milyard avro sərf edəcəyi açıqlanıb.

May ayında isə Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) Cənubi Qafqaz vasitəsilə Orta dəhliz-Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunu (Orta Dəhliz) inkişaf etdirmək üçün Anlaşma Memorandumu imzalayıblar. Memorandum regionda mühüm enerji, nəqliyyat, rəqəmsal və kənd təsərrüfatı infrastrukturunun planlaşdırılması, dizaynı və tikintisini təkmilləşdirməyi hədəfləyir. Həmçinin memorandumla gömrük, tarif və sərhəd əməliyyatlarının səmərəliliyini artırılması, Orta dəhlizin inkişafı üçün Cənubi Qafqaz iqtisadiyyatlarına özəl investisiyaların cəlb edilməsi, eləcə də Avropa və Cənubi Qafqaz ölkələri arasında iqtisadi əlaqəni inkişaf etdirmək üçün ən yüksək beynəlxalq standartların tətbiqi hədəflənir.

Həm ABŞ, həm də Aİ Ermənistanı da Orta dəhlizə cəlb etmək, beləliklə də marşrutun keçdiyi Mərkəzi Asiya və Cənubi Qafqazı Çin və Rusiyanın təsir dairəsindən çıxarmağı planlaşdırırlar.




Beynəlxalq güclərin hər birinin öz marağı olduğu Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı Azərbaycan üçün regional tranzit habına çevrilmə planının reallaşması, beynəlxalq ticarət prosesinin mühüm oyunçusu olmaq kimi geniş imkanlar açır. Bu dəhliz həm də Azərbaycanın Çinlə münasibətlərinə yeni təkan verə bilər.

Azərbaycan və Çin arasında son illərdə iqtisadi-ticari əlaqələrin sürətlə dərinləşməsi prosesi gedir. Ölkələr arasında qarşılıqlı ticarətin həcmi əhəmiyyətli həcmdə böyüyüb. Belə ki, 2015-ci ildə ticarət dövriyyəsi 561 milyon dollar, 2016-cı ildə 975 milyon dollar, 2017-ci ildə 1 milyard 300 milyon dollar, 2018-ci ildə 1 milyard 310 milyon dollar, 2019 və 2020-ci illərdə 2,1 milyard dollar, 2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 2,2 milyard dollar, 2023-cü ildə isə 44 faiz böyüməklə 3,1 milyard dollar təşkil edib. Son 9 ildə mal mübadiləsi 6 dəfə yüksəlib və Çin Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrilib. Hazırda Çin Azərbaycanın 4-cü ən böyük xarici ticarət tərəfdaşı, birinci ən böyük idxal mənbəyidir.

Dövlət Gömrük Komitəsinin statistikasına əsasən bu ilin yanvar-iyul aylarında Azərbaycanla HonKonq da daxil olmaqla, Çin arasında qarşılıqlı ticarət dövriyyəsinin həcmi 1 milyard 976 milyon 598,42 min dollar təşkil edib. Ötən ilin yeddi ayında bu göstərici 1 milyard 622 milyon 417,18 min dollar olmuşdu. Bu isə ticarət həcmlərinin illik ifadədə 22 faiz artdığını göstərir. Təəssüf ki, bu artım əsasən Çinə ixracın azalması fonunda idxalın çoxalması hesabınadır. Belə ki, ötən ilin 7 ayında Azərbaycandan Çinə 65 milyon 102,90 min dollarlıq mal və məhsul ixrac olunmuşdusa, bu ilin eyni dövründə göstərici 5 dəfəyə yaxın azalmaqla 13 milyon 636,26 min dollara düşüb...

Çin həm də ölkəmizdə potensial investorlardan hesab edilir. İndiyə qədər Çindən Azərbaycana 1,5 milyard dollara qədər sərmayə yatırılıb. Öz növbəsində, Azərbaycan bu Asiya-Sakit region ölkəsinə çoxhəcmli investisiya qoyuluşlarında xüsusi paya malikdir və investisiyaların həcmi 1,7 milyard dolları ötür.

Azərbaycan hökuməti Çinə qeyri-neft məhsullarının perspektivli ixrac bazarı kimi baxır. Azərbaycan məhsullarının Çinə ixracını təşviq etmək məqsədi ilə 2018-ci ildən etibarən Pekin, Sian, Çindao, Canciacie, Şanxay və Urumçi şəhərlərində bir neçə “Azərbaycan Ticarət Evi” və “Azərbaycan Şərab Evi” açılıb. Yaxın vaxtlarda Çinin daha 2 şəhərində ticarət evi açılacaq.

Çin şirkətlərinin Azərbaycanda fəaliyyəti sənaye, enerji, infrastruktur, informasiya texnologiyaları, ticarət, kənd təsərrüfatı və digər sahələri əhatə edir. Keçən ilin sonlarına olan məlumata görə, Çinin 1995-ci ildən indiyədək Azərbaycana yatırdığı birbaşa investisiyanın həcmi 920 milyon dollara çatıb (Azərbaycanın Çinə sərmayə qoyuluşu isə bundan təqribən 2 dəfə çoxdur). Azərbaycanda Çin investisiyalı 275 şirkət qeydiyyatdan keçib. Bundan başqa, Azərbaycanın işğaldan azad edilən ərazilərində başlanan infrastruktur layihələrində iştirak üçün Çin şirkətləri müraciət edib. “Huawei” şirkəti isə artıq bu regionda “Ağıllı kənd” və “Ağıllı şəhər” layihələrinin icrasına başlayıb.

Son iki ildə Azərbaycanla Çin əlaqələrinin sürətli inkişafı diqqəti cəlb edir: Azərbaycan Çində keçirilən çoxsaylı sərgilərdə bir qayda olaraq geniş nümayəndə heyəti ilə təmsil olunur. Azərbaycan Çin şirkətlərinin yaşıl enerji, belə enerjidən istifadə edən texnologiyaların istehsalına cəlb olunmasında maraqlıdır. Bu baxımdan, artıq ilkin əməkdaşlıq əlaqələrinin təməli qoyulub. Bir müddət öncə Azərbaycanla Çin mərkəzli BYD şirkəti arasında strateji əməkdaşlıq çərçivəsinin imzalanması ilə 160 elektrik mühərrikli avtobusun, 100 enerjidoldurma aparatının alınması nəzərdə tutulur. İqtisadiyyat Nazirliyinin Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayevin Şanxay Əməkdaşlıq Təşkilatı Nümayiş Zonası - Azərbaycanda Logistika və Ticarətin Təşviqi Konfransında dediyinə görə, şirkətin 2025-ci ildən yerli istehsala başlaması və ehtiyat hissələrini mərhələli şəkildə formalaşdırması nəzərdə tutulub: “Dünyanın ən böyük elektrik mühərrikli nəqliyyat vasitəsi istehsalçılarından olan BYD Azərbaycana 34 mln. dollar investisiya yatırıb. Yaxın vaxtlarda istehsalın başlanması planlaşdırılır”.

Çin şirkətləri bir qayda olaraq Azərbaycanda xüsusi iqtisadi rejimi olan ərazilərdə fəaliyyət göstərirlər. Məsələn, 2023-cü ildə Sumqayıt Kimya Sənaye Parkında “Azərbaycan Vanhong Ceramics Co” MMC-nin keramik plitələr istehsalı müəssisəsi fəaliyyətə başlayıb. Müəssisəyə 70 milyon dollar yatırım edilib, 400-dən yuxarı işçi heyəti var...

Transxəzər dəhlizi ilə daşımaların asanlaşması, müddətinin azalması Azərbaycanın bu ölkədən sürətlə artan idxalının dəyərini aşağı sala bilər. Azərbaycan Dövlət Dəmir Yolunun məlumatına görə, Çindən Orta dəhlizlə cari ilin əvvəlindən iyun ayının sonuna kimi ümumilikdə 105 blok qatar yola salınıb. İlin birinci yarısında Orta dəhlizdə daşınmaların həcmi 2,1 milyon tona çatıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 65 faiz artım deməkdir. Yanvar-iyul aylarında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə daşınan yüklərin həcmi 2,5 milyon tona qədər artıb. Qazaxıstan Nəqliyyat Nazirliyinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 62 faiz çoxdur. Nazirlik bu il TBNM vasitəsilə 4,2 milyon ton yük daşınacağını proqnolaşdırır.

Azərbaycan Orta dəhlizlə getdikcə artan yük axınını vaxtında ötürmək üçün öz infrastrukturunu sürətlə təkmilləşdirir. Bakı-Tiflis-Qars dəmiryol xəttində aparılan təkmilləşdirmə işləri may ayında yekunlaşdırılıb. Nəticədə yolun ötürücülük gücü 5 milyon tona çatdırılıb.

Bugünlərdə isə “Azərbaycan Dəmir Yolları” QSC “Gürcüstan Dəmir Yolları” SC ilə birlikdə “BTKI Railways” MMC adlı birgə müəssisə yaradıb. Bunu səhmdar cəmiyyətin sədri Rövşən Rüstəmov X sosial şəbəkəsindəki hesabında bildirib. O qeyd edib ki, yeni müəssisə Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu xəttinin Marabda-Kartsaxi hissəsinin infrastrukturunun istismarı və idarə edilməsini təmin etməklə yanaşı, BTQ ilə yükdaşımaların səmərəli təşkili və yeni yüklərin cəlbi istiqamətində fəaliyyət göstərəcək: “Azərbaycan və Gürcüstanın bu müəssisə vasitəsilə birgə səyləri həm də regional nəqliyyat bağlantılarını, xüsusilə Orta dəhlizin potensialını gücləndirməyə yönələcək”.

Beləliklə, Azərbaycanın regional nəqliyyat, tranzit habına çevrilmək istiqamətində 10 ildən artıq müddətdə həyata keçirdiyi layihələrin uğurla nəticələnməsi üçün əlverişli şərait formalaşıb. Çinlə imzalanan memorandum bu sahədə irəliləmək üçün fundamental əsasların yaradılmasına gətirib çıxara bilər.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

## KTMT: “Ukraynadakı müharibənin təşkilatın məsuliyyət zonasına keçidi eskalasiyanın yeni mərhələsidir”



**Rusiya hərbi dəstək üçün müraciət edərsə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı nizamnaməsinə uyğun olaraq üzərinə düşən prosedurları yerinə yetirəcək.**

APA-nın “news.ru”ya istinadən xəbərinə görə, bu barədə sözügedən qurumun mətbuat xidmətindən bildirilib.

Qeyd olunub ki, Ukraynadakı müharibənin KTMT-nin məsuliyyət zonasına keçidi eskalasiyanın yeni mərhələsidir.

Təşkilatın mətbuat xidmətindən həmçinin Rusiya tərəfi ilə mütəmadi olaraq qarşılıqlı məlumat mübadiləsi həyata keçirildiyi də açıqlanıb.

Xatırladaq ki, bir qədər əvvəl Rusiyanın NATO-nun mənzil-qərargahındakı keçmiş baş nümayəndəsi, Dövlət Dumasının deputatı Viktor Zavarzin hələlik Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Kurskdakı hərbi əməliyyatlarda iştirakına zərurət olmadığını bəyan edib.

YENİ MÜSAVAT
N 146 (8519) 17 avqust 2024




# Vìrus həyəcanı - yenì qrìp növü, meymunçìçəyì...

## Türkiyədə bir nəfər meymunçiçəyinə yoluxma şübhəsi ilə karantinə alındı; **həkimlərdən SOS!:** "Əgər buna əməl edilməzsə, yaxın aylarda..."

**Son günlərdə ölkəni və dünyanı yeni virus həyəcanı bürüyüb. Hazırda ölkədə xüsusilə uşaqlar arasında qrip, göyöskürək artıb. Habelə, qonşu ölkələrdə COVİD-19 yenidən baş qaldırır. "Hazırda əhali arasında arabir hərarətin yüksəlməsi, ümumi zəiflik, baş və əzələ ağrıları, yuxarı tənəffüs yollarının zədələnməsi əlamətləri olan öskürək, boğaz ağrısı, burun axması və ya tutulması kimi, bəzən isə ürəkbulanma, qusma, qarın işləməsi kimi hallar müşahidə edilir. Bunlara səbəb əsasən müxtəlif virus və bakterial infeksiyalardır".**

Bunu **Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov** əhali arasında arabir qeydə alınan infeksion xəstəliklər barədə danışarkən deyib.

Onun sözlərinə görə, fəsildən asılı olmayaraq, ilboyu müxtəlif yoluxucu xəstəliklərə rast gəlinir: "Hər il isti aylarda kəskin respirator virus infeksiyalarından paraqrip, adenovirus infeksiyaları mühitdə dövr etdiyindən, hazırda da bu tip xəstəliklər qeydə alınır. Hətta isti aylarda bəzən yoluxma saylarında artımlar da müşahidə olunur. Adenoviruslar təkcə tənəffüs yollarını deyil, mədə-bağırsaq sistemini də zədələyə bilir. Eyni zamanda, hər iki sistemin zədələnmə əlamətləri ilə müşayiət olunan və isti dövrlərdə rast gəlinən rotavirus, hava-damcı və təmas ilə daha çox yayılan enteroviruslarıdır.

Bu cür infeksiyaların isti aylarda yayılmasının müxtəlif səbəbləri var. Bunlara həddən artıq isti havanın immunitetə mənfi təsir göstərməsi, yuxarı tənəffüs yollarının quruması nəticəsində infeksiyalara müqavimətin azalması, kondisionerlərin istifadəsi zamanı açıq hava ilə müqayisədə yaşayış və iş yerlərində kəskin temperatur fərqinin olması, otaqların qapalı saxlanması, yay məzuniyyəti ilə əlaqədar əhalinin müxtəlif kütləvi istirahət tədbirləri, çimərlik mövsümünü və s. aid etmək olar".

Digər bir təhlükə isə meymunçiçəyi ilə bağlıdır. Ümumdünya Səhiyyə Təşkilatı yaranmış vəziyyətlə əlaqədar Afrikada "meymunçiçəyi" (mpox) epidemiyasını bütün dünya üçün təhlükə olan fövqəladə hal elan edib.

İl ərzində Afrika qitəsində bu xəstəliyə 15 mindən çox yoluxma və epidemiyadan 461 ölüm halı qeydə alınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 160% çoxdur. Şükürlər olsun, hələlik ölkəmizdə meymunçiçəyinə yoluxma hadisəsi qeydə alınmayıb. Səhiyyə Nazirliyindən bildirilib ki, epidemioloji vəziyyət nəzarət altındadır. Bütün hallarda ölkədə bir virus həyəcanı var. Formula 1, COP29 ərəfəsində bu, ikiqat narahatlıqlar yaradır. Həll yolu nədir? Təlaşlanmağa zərurət varmı?

Yeri gəlmişkən, Türkiyənin Sakarya şəhərində bir nəfər meymunçiçəyi xəstəliyinə yoluxma şübhəsi ilə karantinə alınıb. Bu barədə Türkiyə KİV-i məlumat yayıb. Xəstəxanaya yerləşdirilən həmin şəxsdə virusun bəzi əlamətləri aşkarlanıb. Yanına kimsə buraxılmır. Avropada da meymunçiçəyi virusuna ilk yoluxma halı aşkar edilib. İsveçdə virusun yeni ştammına yoluxma faktı təsdiqlənib. Xatırladaq ki, bundan əvvəl Pakistanda da meymunçiçəyinə yoluxma halı qeydə alınmışdı.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, COVİD-19 bitsə də epidemik ocaqlar davam edir:** "Yer kürəsində insanların immun sisteminin təlatüm keçirdiyi bir vaxtda meymunçiçəyi virusunun da bir epidemioloji ocaq olaraq Afrikada meydana gəlməsi ÜST tərəfindən fövqəladə hal kimi dəyərləndirilir. Məncə, düzgün dəyərləndirmədir. Çünki bu situasiyada mutasiyaya uğramış meymunçiçəyi geniş ərazidə yayıla bilər. Meymunçiçəyi virusu meymunlarda ilk dəfə olduğundan bu cür adlanır. Amma bu virusla əsasən gəmiricilər xəstələnir. Onlardan da insana transfer olunub. Həm gəmiricilərdən, həm də insandan insana virusun keçməsi mümkündür. Əsas təmas da insandan insanadır. Çünki insanlar bir-biri ilə kontaktda olurlar. Yaxın məsafədən, dəridən dəriyə virusun yoluxması mümkündür. Amma yoluxmuş gəmiricilərin dişləməsi, bədəni cırması, onların mayesi yoluxma mənbəyi ola bilər. Adətən virus yüksək hərarət, bədəndə ağrılar, bel, baş, əzələ ağrıları ilə müşayiət olunur. Xəstələrdə əzginlik, halsızlıq müşahidə edilir. Ağ və sarı rəngdə qabarcıqlar (içi maye ilə dolu) əmələ gəlir. Bu onun spesifik əlamətidir. Xəstəliyin spesifik seroloji testi yoxdur. Narahatlıq doğuran da odur. Təqribən 21 günə qədər olan gizli dövrdə ancaq yüksək hərarət və dəridəki əlamətlərlə xəstəlik təsdiq edilir. Ona görə də xəstəlik yayıldığı dövrdə ciddi bir karantin tədbirləri görülməlidir. Giriş-çıxış ora qadağan edilməlidir. Artıq hansı ölkələrdə varsa, orada mütləq tədbirlər görülməlidir. Hesab edirəm ki, virusun yayılmasının qarşısı hər bir vasitə ilə alınmalıdır. Virusun dərmanları təbii çiçəyə uyğun dərmanlardır. Bir də təbii çiçək zamanı olan vaksinasiya burada tətbiq edilə bilər. Təbii çiçək dörd karantin infeksiyadan biridir. Vəba, taun, təbii çiçək və sarı qızdırma kimi dörd karantin infeksiyasından biridir. Təbii çiçək 80-ci illərdə vaksinasiya nəticəsində sona çatdırılıb. Bu virus 10 milyona yaxın insanın tələfatına gətirib çıxarıb, bunu da nəzərə almalıyıq".

**İnfeksionist Gülnarə Əhmədova da mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bildirib:** "Dünyada hazırda müxtəlif virusların yayıldığı dövrdə daha da diqqətli olmalıyıq. Nəzərə alsaq ki, ölkəmizdə Formula 1 və digər vacib tədbirlər olacaq, insanları bilgili olmalıdır. Bu, nəfəs yolu ilə keçən infeksiyadır, odur ki, məsafə saxlamalıyıq. Gigiyena qaydalarına riayət edilməlidir. Əllər yuyulmadan heç bir qida qəbul etməmək vacibdir. Sovetin dövründə ölkələrin bir-birinə gediş-gəlişi yox idi. İnfeksiyalar yayılmırdı. Amma müasir dünyada hər cür infeksiyaları görə bilirik. Ona görə bizdə də heç kim sığortalanmayıb ki, hər hansı virus o turistlərlə ölkəyə daxil olmayacaq. İnkubasiya dövründə olan infeksiya özünü göstərməyə bilər. Onun daşıyıcısı rahat şəkildə bir ölkədən başqa ölkəyə yaya bilər. Bu baxımdan bütün ictimai yerlərdə, "Mall"larda, əyləncə yerlərində, restoranlarda, hətta dəniz kənarında daşıyıcılar ola bilər. Gigiyena və məsafənin qorunub saxlanması vacib amillərdəndir".

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) meymunçiçəyi virusu ilə bağlı fövqəladə vəziyyət elan edib. Məsələ Afrikada ictimai səhiyyə sistemində xəstəliklə bağlı fövqəladə vəziyyətin elan edilməsindən sonra gündəmə gəlib. Hətta Afrika qitəsindən kənarda - İsveçdə meymunçiçəyi virusunun mutasiyasına ilk yoluxma halı da qeydə alınıb. Virus ilk dəfə insanlarda 50 ildən də uzun bir vaxtda Konqo Demokratik Respublikasında aşkar edilib və onilliklər ərzində orada endemik hesab olunur. Konqoda yayılan "Clade I" variantının yeni qolu olan "Clade Ib" ölkənin şərq bölgələrində və əvvəllər təsirə məruz qalmayan qonşu ölkələrdə yayılır.

Əvvəlcə onu qeyd etmək lazımdır ki, dünya səhiyyə rəsmiləri artıq meymunçiçəyi terminindən qeyri-dəqiq hesab olunduğu üçün istifadə etmirlər. Virus hazırda "Mpox" adlandırılır.

"Mpox" zoonoz (heyvanlardan insanlara və insanlardan heyvanlara keçə bilən, həm insanlarda, həm də heyvanlarda müşahidə edilən yoluxucu xəstəliklər) virusdur və qripə bənzər simptomlara, ağrılı lezyonlarla səpgilərə, bədən hərarətinin artmasına, baş və bel ağrılarına səbəb olur.

Avropa Xəstəliklərin Qarşısının Alınması və Nəzarəti Mərkəzinə (ECDC) görə, "Mpox"dan ölüm nisbətləri epidemiyalar arasında dəyişir. İİV-ə yoluxmuş və müalicə olunmamış insanlar da daxil olmaqla, immun sistemi zəif olan uşaqlar və insanlar şiddətli xəstəlik və simptomlar üçün yüksək risk qrupu sayılırlar. Məlumata görə, "Mpox" virusu xüsusi müalicəyə ehtiyac olmadan öz-özünə yox olur və simptomlar adətən iki ilə dörd həftə davam edir. İnsanlar yaxından üz-üzə təmasda olduqda virus tənəffüs vasitəsilə də ötürülə bilər. Bəzi insanlar simptomlar inkişaf etməzdən əvvəl "Mpox" yoluxdura bilər və risk onların səpgiləri sağalana və yeni bir dəri təbəqəsi yaranana qədər davam edir. Simptomlar adətən 6 ilə 13 gün, bəzən isə 21 gün ərzində özünü büruzə verir.

**❑ Afaq MİRAYİQ, "Yeni Müsavat"**

---

# Unun qiyməti düşür - çörək ucuzlaşacaq?



**Azərbaycanda unun topdansatış qiyməti son aylarla müqayisədə yenə aşağı düşüb. Avqustun 12-dən etibarən istehsalçılar unun qiymətini bir manatadək azaldıblar. Ötən ayla müqayisədə unun topdansatış qiymətində 0.7-1.3 manat azalma müşahidə olunur. Açıqlanan rəsmi məlumata görə, ölkədə hazırda 50 kq-lıq unun topdansatış qiyməti 26.1-27.8 manat aralığında dəyişir. Ötən ay bu rəqəm 26.8-28.5 manat, iyun ayında isə 28.3-29.5 manat təşkil edib.**

Bəs bu proses çörəyin qiymətinin azalmasına səbəb ola bilərmi?

Musavat.com xəbər verir ki, iqtisadçı ekspert Fuad İbrahimov Bizim.media-ya açıqlamasında unun ucuzlaşmasının çörəyin qiymətinin azalmasına birbaşa təsiri ola biləcəyini deyib:

"Amma sağlam rəqabət şəraitində. Çünki məhsulun əsas xammalı ucuzlaşırsa, bu da istər-istəməz hazır məhsulun maya dəyərinə də öz təsirini göstərir. Lakin sağlam rəqabət olmayan yerdə maya dəyəri nə qədər azalsa da, hazır məhsul baha olaraq qalır.

Nəzərə alaq ki, çörək əsas qida və strateji məhsul olduğu üçün bu sahəyə dövlət nəzarəti kifayət qədər yüksəkdir. Son illərin təcrübəsində də gördük ki, ərzaqlıq buğda və unun qiyməti endikcə çörəyin də qiymətində azalma olub. Son zamanlar "zavod çörəyi"nin qiymətində iki dəfə eniş olub. Yəqin ki, budəfəki azalma da çörəyin qiymətinə öz təsirini göstərəcək və yaxın zamanlarda biz çörəyin ucuzlaşmasını görə bilərik".

YENİ MÜSAVAT
N 146 (8519) 17 avqust 2024



## Belarusun müdafiə naziri: "Ukrayna tərəfdən silahlı təxribatların olması ehtimalı yüksəkdir"

**Ukrayna tərəfdən silahlı təxribatların olması ehtimalı yüksəkdir.**

APA "Belta"ya istinadən xəbər verir ki, bu barədə Belarusun müdafiə naziri Viktor Xrenin bildirib.

Belarus dövlət başçısının hərbi təhlükəsizlik məsələlərinə dair müşavirəsində çıxış edən Xrenin Ukrayna tərəfdən silahlı təxribatların baş verməsi ehtimalının yüksək olduğunu qeyd edib.

"Belarus istənilən təxribatın qarşısını almaq üçün bütün imkanlara malikdir".

Bunu isə Belarus prezidenti Aleksandr Lukaşenko hərbi təhlükəsizlik məsələlərinə dair müşavirədə bildirib.

"Biz Belarusa qarşı istənilən təhlükənin qarşısını almağa tam hazırıq. Belə başa düşürəm ki, mümkün təxribatların - mən "hücum" və ya "zərbə" sözlərindən istifadə etmək istəmirəm - qarşısını almaq üçün bütün imkanlarımız var", - Lukaşenko vurğulayıb.

# Rusiya - Ukrayna müharibəsi əndazədən çıxır - Moskva nüvə bombası ata bilərmi...

## Zelenski Kurskun mərkəzi Suca şəhərinin nəzarətə götürüldüyünü açıqladı, ordu 80-dən çox yaşayış məntəqəsini kontrolda saxlayır; analitiklər Putinin strateji uğursuzluğunun səbəbləri və Kremlin son anda atacağı addımları təhlil edib



**Ukrayna ordusu Rusiyanın Kursk vilayətinin Sudja (Suca) qəsəbəsini nəzarətə götürüb. Bu barədə avqustun 16-da prezident Volodimir Zelenski məlumat verib. Zelenski açıqlamasında deyib: "Biz yeni irəliləyiş əldə etdik. Baş Qərargah rəisi Aleksandr Sırski Sudjanın ələ keçirildiyini bildirdi. Hazırda orada Ukrayna hərbi komandanlığı yaradılır. Daha bir neçə yaşayış məntəqəsi də geri alınıb. Onların sayı artıq 80-ni ötüb". Ukrayna ordusu PUA-larla Belqorod vilayətinə də hücum edib. Vilayətin qubernatoru Vyaçeslav Qladkovun sözlərinə görə, hücum nəticəsində Qrafovka kəndinə ziyan dəyib. Drondan atılan partlayıcı qurğu özəl sektorlardan birinə düşüb. Nəticədə iki avtomobil tamamilə yanıb. Həmçinin iki fərdi evin pəncərələri sınıb, dam örtüyü, fasad və hasarlar dağılıb. Ukrayna Qara dənizdə də hücuma keçib. Bu barədə məlumatı Rusiya Müdafiə Nazirliyi yayıb. Bildirilib ki, Qara dənizlə Krım yarımadasına doğru hərəkət edən iki pilotsuz qayıq da zərərsizləşdirilib.**

ABŞ-ın Müharibənin Öyrənilməsi İnstitutunun hesabatında bildirilib ki, Ukrayna ordusunun Kursk vilayətində əməliyyatın mümkün olmasının səbəblərindən biri Rusiyanın Ukraynanı lazımınca qiymətləndirməməsidir. "2022-ci ilin payızından Kreml və Rusiya hərbi komandanlığı Ukraynanın şimal-şərqi ilə sərhədə "yatmış" cəbhə kimi baxıb və çox güman ki, öz ərazisini qorumaq üçün kifayət qədər tədbirlər görməyib. Əgər Rusiya Ukraynanın hücumuna qarşı özünü müdafiə etməyi planlaşdırsaydı, onlar tez bir zamanda daha vahid və aydın struktur yaradardılar. Bu hücum çox güman ki, Kremlin sərhəddə Ukraynanın daha hansı növ əməliyyatlarının mümkün olduğuna dair anlayışını genişləndirəcək və Putin və Kremlin strateji uğursuzluqdan əziyyət çəkdiyini ortaya qoyacaq", - hesabatda qeyd olunub.

Ümumiyyətlə, Rusiya-Ukrayna müharibəsi artıq əndazədən çıxır. Kursk, Belqorodda davam edən döyüşlərin fonunda bəşəriyyət üçün böyük təhlükələr meydana çıxır. Hətta kiçik bir dövlət olan Estoniya bəyan edib ki, Ukraynaya dəstəyini davam etdirəcək. Həmçinin bu məlumat da dünya boyunca yayıldı ki, Ukrayna qoşunları Rusiya Federasiyasının Kursk vilayəti ərazisinə hücum zamanı Britaniyanın "Challenger 2" tanklarından istifadə edib. Bu barədə "Sky News" telekanalı məlumat yayıb. Əgər məlumat təsdiqlənsə, bu, Ukrayna hərbçilərinin Rusiya torpaqlarında döyüşlərdə ilk dəfə Britaniya tanklarından istifadə etməsi anlamına gəlir. Böyük Britaniyanın Müdafiə Nazirliyi əməliyyat təfərrüatlarını şərh etməkdən imtina edib. Ukrayna Silahlı Qüvvələri də buna rəsmi münasibət bildirməyib. Böyük Britaniya hökuməti, sadəcə, Ukraynanın Rusiya ərazisində Britaniya silahlarından istifadə etməkdə sərbəst olduğunu təsdiqləyib. Kanalın mənbəsi bunun "Challenger 2" tanklarına aid olduğunu bildirib və onların Ukraynanın avqustun 6-da başlayan əməliyyatı zamanı istifadə edildiyini bildirib.

Baş verənlərdən hansı nəticə çıxır? Qarşıdakı günlərdə şiddətli savaşlar davam edərsə, Rusiya ərazisinə hücumlar dayanmazsa, Moskva nüvə silahından istifadə təhdidlərini gerçəkləşdirə bilərmi? Rusiya Telegram kanallarında adının çəkilməsini istəməyən diplomatik mənbəyə istinadən bu mövzuda maraqlı məlumat yayılıb. Rusiyalı həmin mənbə bildirib ki, Kursk hadisələri ilə əlaqədar Moskvanın nüvə silahına əl atması mümkün deyil. O deyib ki, nüvə silahının tətbiqi beynəlxalq səviyyəli fövqəladə hadisə olar və Moskva bu addımın həm dünya siyasətinə təsirlərini, həm də nüvə dövlətlərinin mövqeyini nəzərə almalıdır. Rusiyanın tərəfdaşları Çin və Hindistan, ümumiyyətlə, bu məsələnin qoyuluşuna qarşıdır. Vaşinqtonun mövqeyi məlumdur - onlar bu halda qeyri-nüvə xarakterli zərbə ilə cavab verəcəklər. Britaniya isə Ukraynaya taktiki nüvə silahı verməyi nəzərdən keçirəcək.

Hazırda ATACMS taktiki ballistik raketləri ilə Rusiya ərazisinə zərbə endirilməsinə icazə verilməsi üçün Kiyev və Vaşinqton arasında danışıqlar gedir. ABŞ xüsusən Kursk vilayətində ATACMS raketlərindən istifadə edilməsinin əleyhinədir. Vaşinqton hesab edir ki, həmin raketlərdən Krımda istifadə olunması daha vacibdir. ABŞ rəsmiləri həmçinin onu da qeyd ediblər ki, ATACMS raketlərindən istifadəyə qadağa qoyulması heç də Rusiyadan çəkinməklə bağlı deyil. Sadəcə, bu qərarın verilməsinə səbəb həmin raketlərin məhdud sayda olmasıdır. Kanadanın Müdafiə Nazirliyi isə açıqlama yayıb ki, Ukrayna göndərdiyimiz silah-sursat və hərbi texnikadan Rusiya ərazisində istifadə edə bilər. Bildirilib ki, rəsmi Kiyevə bununla bağlı məhdudiyyət qoyulmayıb. Nazirliyin açıqlamasında Ukrayna hökumətinə 8 ədəd "Leopard 2A4" tankı, onlarla zirehli maşın, yüzlərlə zirehli patrul avtomobili və bir neçə ədəd "M-777" artilleriya qurğusu göndərildiyi bildirilib.

"Ölkənin şərqindəki Ukrayna qoşunları indi ehtiyac duyduqları hər şeyi alırlar". Ukrayna prezidenti Volodimir Zelenski deyib. Ukraynanın şərqində Rusiya qoşunlarının artan təzyiqi səbəbindən Kiyev Donetsk vilayətində müdafiəyə maksimum diqqət yetirir. Zelenski gündəlik videomüraciətində Rusiya hücumlarının əksəriyyətinin Toretsk və Pokrovskda baş verdiyini bildirib. Onun sözlərinə görə, təcili ehtiyac duyulan ləvazimatlar cəbhəyə artıq gəlib - "indi lazım olan hər şey". Bununla belə, Zelenski şiddətli döyüşlər gedən bölgələrə əlavə qoşunların göndərilib-göndərilmədiyini dəqiqləşdirməyib.

**Baş verənləri şərh edən analitik Elxan Şahinoğluna görə, Putin Ukraynaya qarşı işğalçı müharibəyə qərar verməmişdən öncə köməkçilərinə, müşavirlərinə və nazirlərinə mümkün ssenarilər barədə hesabat hazırlamaq tapşırığı verməyib:** "Müharibənin uzanacağı halda bunun Rusiya üçün hansı fəsadlar yaradacağı proqnozlaşdırılmayıb. Kremlin yeganə yanlış ssenarisi o olub ki, bir həftəyə qoşunlar Kiyevə daxil olacaq və Ukraynada Moskvaya tabe olacaq hakimiyyət qurulacaq. Görünür, Kremli 2008-ci ildə bir neçə günün içərisində Gürcüstan müharibəsində qazandığı uğur və 2014-cü ildə bir güllə atmadan Krımın ilhaqı kefləndirib. Elə biliblər ki, Ukraynanın qalan hissəsini də asanlıqla özlərinə tabe etdirəcəklər. İlişiblər və Kremlin indiki ağır vəziyyətdən necə çıxacağına dair aydın təsəvvürü yoxdur".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Qız uşaqlarının sayı niyə azalır? - təhlükəli tendensiya

## Yeni doğulan uşaqlar arasında hər 100 qıza 115 oğlan düşür; cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkədə acınacaqlı nəticələrə səbəb ola bilər

**Azərbaycanda bu ilin beş ayı ərzində 41608 doğulan körpə qeydə alınıb.**
**Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Məlumata görə, cari ilin yanvar-may aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 41608 doğulan körpə qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 11,1-dən 9,8-ə düşüb.**



Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,1 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,9 faiz olub. Körpələrdən 1390-ı əkiz, 51-i üçəm, 4-ü isə dördəm doğulub.

Beləliklə, Azərbaycanda yeni doğulan uşaqlar arasında hər 100 qıza 115 oğlan düşür. BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq.

Sosioloqlar bildirir ki, cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin acınacaqlı nəticələrlə üz-üzə qalması halına gətirib çıxara bilər. Bura gender bərabərsizliyi, zorakılıq, erkən nikah, insan alveri və kriminal səviyyənin artması da aiddir.

Araşdırmalara əsasən dünyada təbii halda hər 100 qıza qarşılıq 105 oğlan doğulur. Amma bəzi inkişaf etməkdə olan Asiya ölkələrində bu rəqəm süni şəkildə oğlanların xeyrinə dəyişdirilir. Məsələn, Çində hər 100 qıza 120-150, Gürcüstanda 118, Ermənistanda 120, Azərbaycanda isə 115 oğlan dünyaya gəlir.

Sosioloqlar isə düşünür ki, adətən qız uşaqlarına olan istəksizlik inkişaf etməmiş, partriarxal cəmiyyətlərdə özünü göstərir. Buna səbəb isə ailələrin qızları zəif hesab etməsidir. Belə ki, bu sayaq cəmiyyətlərdə qadınların hüquqları daha çox pozulur. O səbəbdən heç bir ana öz yaşadıqlarını övladlarının təkrarən yaşamasını istəmir. Bu isə cəmiyyətin özünün zəifliyindən irəli gəlir.

Hazırda qızların sevilmədiyi ölkələr sırasında ilk yerdə gələn ölkələrdən biri də Hindistandır. Qız uşağı istəməyən ailələr ya yeni doğulan qız uşaqlarını öldürür, ya da cinsiyyəti müəyyənləşdikdən sonra aldırırlar.

Son 10 ildə öldürülən qız uşaqlarının sayı 8 milyona çatıb. Digər bir fakt isə Hindistanda doğulan qız uşaqlarının cinsiyyətinin dəyişdirilməsi ilə bağlıdır. Oğlan uşağı istəyən ailələr qız uşaqlarını kiçik yaşda ikən əməliyyat etdirmək üçün 3 min dollar ödəyirlər. Bunun səbəbini isə qız uşaqlarını evləndirməyin yüksək maliyyə xərcləri tələbi ilə əlaqələndirirlər. Hindistanda 6 yaşa qədər oğlan uşaqlarının sayı qızlardan 7 milyon daha çoxdur. Cins dəyişikliyi ilə bağlı əməliyyatda iştirak edən həkimlər bunu qız uşaqlarının artım orqanlarının normal olmaması ilə izah edir və tibbi müdaxilə ilə bu problemi aradan qaldırdıqlarını deyirlər. Əslində isə estetik əməliyyatdan sonra qız uşaqlarına kişi hormonları yeridilir. Alimlərin fikrincə, bu, uşaqların gələcəkdə sonsuzluğuna gətirib çıxaracaq. Hindistanda bu gün hər 100 qız qarşılığında 112 oğlan doğulur.

Qız uşaqları qəbul edilmədiyi və tək uşaq istəyi səbəbindən tez-tez uşaqları ana bətnindən götürdən Çində hər 100 qız uşağının müqabilində 121 oğlan doğulur. Hətta bəzi qəsəbə və kəndlərdə bu rəqəm 150-yə çıxır. Dünya əhalisinin yüzdə 38-ni təşkil edən bu iki ölkədə 40 milyon kişini gözləyən sonluq odur ki, 15 il içərisində evlənəcək qadın tapa bilməyəcəklər. Bu ölkələrdə oğlan uşağına sahib olmamaq bir ailənin başına gələcək ən böyük fəlakət hesab edilir. Hətta hindlilərin bir atalar sözündə də deyilir ki, "Bir qız uşağını yetişdirmək, qonşunun bağçasını sulamağa bənzəyir".

Beləliklə, 1970-ci illərdə ana bətnindəki körpənin cinsiyyətini öyrənmənin mümkün olduğu vaxtdan indiyədək dünyada 160 milyondan çox qız uşağı doğulmadan aldırılıb. Bu, yalnız qız uşaqlarının haqlarının əllərindən alınması deyil, dünyada tarazlığın da pozulmasının göstəricisidir. Bu gün dünyada 107 oğlan uşağının müqabilində 100 qız doğulur. Alimlərin fikrincə, kişilərin sayının qadınlardan çox olduğu cəmiyyətlər şiddət və müharibəyə daha meylli olurlar.

Azərbaycana gəldikdə, ölkəmizdə selektiv abort geniş yayılıb. Doğrudur, Azərbaycan Respublikasının qanunvericiliyində cinsi mənsubiyyətinə görə ayrı-seçkilik yolverilməzdir. Bununla belə, Azərbaycan selektiv abortların ümumi mənzərəsinə görə dünyada liderdir.

Bir çox ailələrdə qadınların reproduktiv sağlamlıq hüquqları qorunmur, ailə üzvlərinin istəyinə əsasən qadın hamiləliyi süni şəkildə dayandırmağa məcbur edilir. Bəzən də qadın yalnız qız uşaqları dünyaya gətirdiyi üçün tərk edilir.

"Hansısa bir doğulmamış qızın məhv edilməsi bir ananın qətl edilməsi deməkdir. Bir zamanlar "çar öldürənlər", "ata öldürənlər" ifadəsi vardı. Bizdəkilərsə ana öldürənlərdir. Ona görə də belələrinin cəmiyyətə tanıdılması çox vacibdir. Bu vəhşiliyin heç bir izahı, bəraəti yoxdur". Bu sözləri **VI çağırış Milli Məclisin deputatı Fazil Mustafa** deyib. O qeyd edib ki, bu məsələyə cəmiyyətin həssaslığı artmalı, selektiv abort anlayışının gündəmdən çıxması üçün bütün vasitələrə əl atılmalıdır: "Bunun üçün həm inzibati, həm də stimullaşdırıcı metodlardan istifadə olunmalıdır. Axı necə ola bilər ki, ana-ata cinsinə görə öz övladının ölümünə fətva verir?! Bunun tək adı var, o da vəhşilikdir. Ona görə də bu vəhşiliyə qarşı cəmiyyət olaraq hər birimiz mübarizə aparmalıyıq".

Onu da qeyd edək ki, artıq "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər Planının əsas məqsədi uşaqların doğulanadək cins seçiminin qarşısının alınması və ailələrdə doğulan uşaqlar arasında qız uşağına nisbətən oğlan uşağına üstünlüyün azaldılması, bu üstünlüyün kökündə dayanan gender stereotiplərinin aradan qaldırılmasıdır.




## Sumqayıtda qumbara partlayıb, 66 yaşlı kişi ölüb

**Sumqayıtda partlayış olub. APA-nın xəbərinə görə, hadisə 8-ci mikrorayon ərazisində, 27 A ünvanındakı yaşayış binasında qeydə alınıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, avqustun 16-da saat 11 radələrində 1958-ci il təvəllüdlü Truxin Sergey Valentinoviçin Sumqayıt şəhərində yaşadığı mənzildə əl qumbarasının partlaması nəticəsində almış olduğu xəsarətlərdən ölməsi faktı ilə bağlı Sumqayıt Şəhər Prokurorluğunda araşdırma aparılır.




## Kirayələdiyi maşınla narkotik daşıyan sürücü saxlanıldı

**Narkotik vasitənin təsir altında sükan arxasına əyləşən sürücünün kirayələdiyi avtomobillə narkotik daşıdığı məlum olub.**

Bu haqda DİN-nin mətbuat xidmətindən məlumat verilib.

Baş Dövlət Yol Polisi İdarəsinin Ələt-Astara yolu üzərində yerləşən stasionar postunda "KIA" markalı avtomobilin sürücüsü yol-patrul xidməti əməkdaşının "Saxla" işarəsinə əhəmiyyət verməyərək hərəkətini davam etdirib. YPX Alayının əməkdaşları tərəfindən görülən tədbirlərlə tabesizlik göstərən sürücü - Lənkəran rayon sakini Faiq İsayev saxlanılıb.

Araşdırma zamanı F.İsayevin avtomobili narkotik vasitənin təsiri altında idarə etməsi və kirayələdiyi avtomobildə narkotik vasitə daşıması müəyyən olunub. Belə ki, avtomobilə baxış zamanı oradan ayrı-ayrı qablaşdırılmış ümumi çəkisi iki kiloqrama yaxın olan narkotik vasitə aşkarlanaraq götürülüb.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi məqsədilə avtomobil kirayələyən F.İsayev aidiyyəti üzrə ərazi polis orqanına təhvil verilib. Faktla bağlı araşdırma aparılır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# “Bığ yeri yeni tərləyənlər”in bıçaq “sevgisi”

## Yeniyetmə və gənclərin aqressiyasının səbəbi; **hüquqşünas:** “İşsizlik, təhsilsizlik problemini aradan qaldırmaqla cinayətlərin sayını da azaltmaq olar”

**Son vaxtlar yeniyetmələrin, “bığ yeri yenicə tərləyən” gənclərin ağır cinayətlər törətməsi faktları artıb. Təkcə 15 avqustda ölkədə 17 və 18 yaşlı iki gənc adam bıçaqlayıb. Göygöldə bıçaqlanma hadisəsi baş verib. Hadisə rayonun Bəhrəmbəy kəndində qeydə alınıb. 1981-ci il təvəllüdlü A.Süleymanov bıçaqlanma diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Hadisəni törətməkdə şübhəli bilinən 2006-cı il təvəllüdlü Ramin Bayramov polis əməkdaşları tərəfindən saxlanılıb.**

Daha bir hadisə isə Göyçayda baş verib. 17 yaşlı yeniyetmə Səid Bayramlı əslən Göyçay rayon Çayarxı kəndindən olan Hüseyn Feyzullayevi bıçaqlayaraq öldürüb. Yeniyetmə və gənclərin bıçaq “sevgisinin”, aqressiyasının səbəbi nədir? Ölkədə gənc və yeniyetmələrin kriminal davranışa meyllənməsi, bir çoxunun cibində bıçaq gəzdirməsi halları var. Bunun səbəbi nədir? Yeniyetmə və gəncləri belə davranışlardan uzaqlaşdırmaq üçün hansı profilaktik tədbirlər, maarifləndirici işlər görülməlidir?



**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov “Yeni Müsavat”a deyib ki, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişlərin “cavanlaşması” tendensiyası müşahidə olunur:** “Hazırda dünyada "cinayətkarlığın cavanlaşması" ciddi narahatlıq doğuran məsələlərdəndir. Bu gün məhkum olunmuş şəxslərin əsas kateqoriyasını 16 yaşdan 35 yaşa qədər olanlar təşkil edir. Məhkumların islah olunması ilk olaraq cəzasını çəkdiyi yerlərdə, azadlığa buraxıldıqdan sonra ona təhsilinin davam etdirilməsi üçün imkanın yaradılmasında, işlə təmin olunmasına xüsusi qayğının həyata keçirilməsində, ailə həyatının normal axara yönəldilməsində, cəmiyyətdə sosial qruplar arasında qarşılıqlı, isti, mədəni münasibətlərin bərpa olunmasında mümkündür. Rusiya Federasiyasında keçirilən sorğular zamanı məlum olub ki, azadlıqdan məhrum olunmuş şəxslərin 45 faizi azadlığa buraxıldıqdan sonra məhkumluqlarının olması səbəbindən işə qəbul edilmələrindən imtina edilir. Bəzən çətin durumda və məhrumiyyətlərlə üz-üzə qalan, iradəsi zəif belə şəxslər həyatda çıxış yolu tapa bilmədiklərinə görə, yeni cinayətlərin törədilməsində israrlı olurlar. Azərbaycanda bu tendensiyanın aradan qaldırılması üçün Daxili İşlər Nazirliyi və müvafiq qurumlar iş aparırlar. Bununla belə, vəziyyətin müsbətə meyllənməsi üçün islah müəssisələrinin fəaliyyəti məhkum gənclərin təhsil və ixtisas əldə etməsinə yönəldilməlidir. Məhkumların qohumları ilə ictimai faydalı əlaqələrinin bərpası və saxlanması, ictimaiyyətin, dini qurumların nümayəndələrinin tərbiyə prosesinə cəlb edilməsi, məhkum qadınların azadlığa buraxılmasına hazırlıq və gələcək sosial reabilitasiya proqramlarının işlənib hazırlanması istiqamətində görülən işlər böyük əhəmiyyət kəsb edir. 2024-cü ilin ötən 6 ayı ərzində əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 18 min 518 cinayət qeydə alınıb. Onların 94,5 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub. 2023-cü ilin analoji dövrü ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlər 21,7, mülkiyyət əleyhinə olanlar 11,4, oğurluqlar 38,9, quldurluqlar 10,3, soyğunçuluqlar 41,3, yetkinlik yaşına çatmayanların cinayətləri 27,4, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlər 3,9 faiz azalıb. Statistikadan da göründüyü kimi, yetkinlik yaşına çatmayanların cinayətləri azalıb".

**Natiq Ələsgərovun sözlərinə görə, yeniyetmələrin, gənclərin davranışını formalaşdıran bir neçə amil var:** “Hər bir yeniyetməyə, gəncə öz potensialını ortaya qoymağa şərait yaradılmalıdır. Onda sabaha inam hissi, sabahdan gözləntiləri olmalıdır. Əgər sabaha inam yoxdursa, arzuolunan səviyyədə deyilsə, onlar cinayət xarakterli işlər görməyə daha meylli olurlar. İnsanlar işsiz olanda cinayətə meyllilik inkişaf edir. Belə adamların aldığı məlumatlar da cinayət aləminin məlumatları olur. Gənclərimiz işsizdir, pulu yoxdur, özünü təsdiq edə bilmirlər”.

**Natiq Ələsgərov deyir ki, sosial şəbəkələrdə oğru aləminin təbliği də yeniyetmələrin, gənclərin cinayətə sürüklənməsinə xidmət edən amillərdən biridir:** “Mənəvi dəyərlər aşılayan filmlər yoxdur, əvəzində bu aşınmanı təbliğ edən kinolar, seriallar bəs deyincədir. TV-lərimizi bir çox hallarda yüngüllük, yaltaqlıq aşılayan tələsik hazırlanan verilişlər işğal edib. Ümid tək təhsil sistemindədir. Təhsil sistemi uzun illərdir ki, eksperimentlər obyektidir. Gənclərimiz işsiz, təhsilsizdir. İşsizlik, təhsilsizlik problemini aradan qaldırmaqla cinayətlərin sayını da azaltmaq olar. Cinayətlərin artımına səbəb olan amillər toplumu var. Əsas cinayətin motivinə diqqət etmək lazımdır. Çox təəssüf ki, statistik məlumatlar açıqlanarkən motivi göstərmirlər. Tam olmasa da, belə cinayətlərin törədilməsində əsas rol oynayan sosial-iqtisadi durumdur”.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# Azərbaycandan Türkiyəyə turist axını 500 min nəfəri ötüb

## Bu il xaricdən ölkəmizə 1.5 milyondan çox turist gəlib

**2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə Azərbaycandan xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 23,1% artaraq 1 milyon 223 min nəfər olub.**



Bu barədə “APA-Economics”ə Dövlət Statistika Komitəsindən bildirilib.

Məlumata görə, İrana gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 37,8 faiz, Türkiyəyə gedənlərin sayı 19,3 faiz, Rusiya Federasiyasına gedənlərin sayı 16,2 faiz, Gürcüstana gedənlərin sayı 15,9 faiz artıb. Azərbaycan Respublikası vətəndaşlarının 41,2 faizi (503 876 nəfər) Türkiyəyə, 21,4 faizi (261 722 nəfər) Rusiya Federasiyasına, 8,7 faizi (106 401 nəfər) Gürcüstana, 8,6 faizi (105 178 nəfər) İrana, 20,1 faizi (245 823 nəfər) digər ölkələrə səfər edib. Gedənlərin 65 faizini kişilər, 35 faizini qadınlar təşkil edib.

2024-cü ilin yanvar-iyul aylarında xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 68,9 faizi hava, 28,9 faizi dəmir yolu və avtomobil, 2,2 faizi isə dəniz nəqliyyatından istifadə edib.

Dövlət Statistika Komitəsindən həmçinin bildirilib 2024-cü ilin yanvar-iyul aylarında Azərbaycan Respublikasına dünyanın 182 ölkəsindən 1 milyon 502,7 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 31,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Məlumata görə, gələnlərin 29,2 faizi Rusiya Federasiyası, 16,5 faizi Türkiyə, 9,3 faizi Hindistan, 8,3 faizi İran, 4,2 faizi Səudiyyə Ərəbistanı, 4,0 faizi Gürcüstan, 3,2 faizi Qazaxıstan, 2,7 faizi Pakistan, hər birindən 1,7 faiz olmaqla Özbəkistan və Birləşmiş Ərəb Əmirlikləri, 1,5 faizi Çin, hər birindən 1,3 faiz olmaqla Ukrayna və Küveyt, 1,2 faizi Türkmənistan, hər birindən 1,1 faiz olmaqla İsrail və Oman, 1,0 faizi Belarus, 10,7 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 67,1 faizini kişilər, 32,9 faizini qadınlar təşkil edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə Hindistandan gələnlərin sayı 2,5 dəfə, Cənubi Koreyadan - 2,3 dəfə, Çindən - 2,1 dəfə, İspaniyadan - 1,8 dəfə, Qazaxıstandan - 1,8 dəfə, Qırğızıstandan - 1,7 dəfə, Filippindən - 1,6 dəfə, Pakistandan - 1,5 dəfə, İordaniyadan - 49,7 faiz, Omandan - 47,0 faiz, İrandan - 46,5 faiz, Səudiyyə Ərəbistanından - 42,8 faiz, İtaliyadan - 38,7 faiz, Yəməndən - 35,9 faiz, Türkmənistandan - 33,0 faiz, Polşadan - 31,8 faiz, Küveytdən - 29,3 faiz, Misirdən - 29,2 faiz, Özbəkistandan - 25,6 faiz, ABŞ-dan - 21,9 faiz, Ukraynadan - 20,5 faiz, Türkiyədən - 19,6 faiz, Almaniyadan - 19,3 faiz, Tacikistandan - 17,8 faiz, Rusiya Federasiyasından - 16,9 faiz, Bəhreyndən - 14,3 faiz, Fransadan - 13,5 faiz, Gürcüstandan - 11,8 faiz, Birləşmiş Ərəb Əmirliklərindən - 7,5 faiz artıb.

2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə körfəz ölkələrindən gələnlərin sayı 39,6 faiz artaraq 258,8 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 28,0 faiz artaraq 57,1 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 20,5 faiz artaraq 576,1 min nəfər olub.

# Kasıbların şərikli interneti - qiymət artımından çıxış yolu...

**Osman Gündüz:** "Antiinhisar Agentliyi açıqlayıb ki, provayderlərin bu tip qərarlarının hüquqi qüvvəsi yoxdur"



**Avqustun 15-dən etibarən ölkədə internet bahalaşıb. Dünya ölkələri ilə müqayisədə son bahalaşmadan öncə belə Azərbaycanda internet tarifləri yüksək, xidmət səviyyəsi isə qaneedici deyildi.**

Srağagündən isə Azərbaycanda genişzolaqlı internet tarifləri üzrə sürət və ödəniş məbləğində dəyişiklik edilib. GPON (Gigabit Passive Optical Network - Gigabit tutumlu Passiv Optik Şəbəkə) tarifləri üzrə təqdim olunan sürətlər 2.5 dəfə (40 Mbit/s internet sürətini 100 Mbit/s-yə, 60 Mbit/s internet sürətini 150 Mbit/s-yə və 100 Mbit/s sürətini isə 250 Mbit/s-yə qədər) artırılıb.

Yeni sürət tariflərində abunəçilər üçün minimal sürət 100 Mbit/s-dən başlayır və hər Mbit/s-yə üçün ödəniş məbləği 0.45 AZN-dən 0.25 AZN-ə endirilib.

Belə ki, abunəçilərə 100 Mbit/s-yə internet üçün 25 AZN, 150 Mbit/s-yə internet üçün 30 AZN, 250 Mbit/s-yə internet üçün isə 36 AZN təklif edilir.

Maraqlıdır, provayderlər niyə hamısı standart qiymətə keçir və insanlara seçim buraxmırlar? Rəqabət niyə yoxdur? İnterneti ucuzlaşdırmaq mümkündürmü?

Məsələ ondadır ki, rayonlarda əhalinin minimum 25 manata internet alması onların büdcəsinə daha pis təsir edəcək. Xeyli adamın internetdən istifadəsi məhdudlaşacaq.

Belə bir fikir səsləndirilir ki, 3-4 qonşu yığışıb bir internet alacaq. Bu, bina evlərində mümkündür, ancaq rayonlarda, kəndlərdə həyət evlərində mümkünsüzdür. Çünki əhatə dairəsinin uzaqlığı qoşulmaya imkan verməyəcək. Belə olan halda hökumət məsələyə müdaxilə etməlidirmi?

**Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasov bildirib ki, internetin qiymətində qalxmaların olması zərurətdən irəli gəlir:** "Ötən gündən etibarən Azərbaycanda kiçik həcmli internet paketləri ləğv olundu və yerinə 100 Mbit-lik internet paketləri təyin olundu. Ümumiyyətlə, bir neçə ildir ki, Azərbaycanda yüksək sürətli internet məsələsi gündəmdədir. İnsanlar internetin donmasından və yaxşı işləməməsindən şikayətçi idilər. Bir neçə ildir ki, bu proses davam edir. Simli, yəni ADSL dövründən başlayaraq simli xətlər üzərində internet yarandığı vaxtdan etibarən bu problemlər var. Daha sonra GPON infrastrukturu Azərbaycanda qurulmağa başladı. Bu ilin sonuna kimi proses tamamlanmalıdır.

Hazırda bu proses davam edir. Ümumiyyətlə, genişzolaqlı internet infrastrukturunun qurulması ölkədə internet problemini həll edəcəkmi? Bu, dövrə görə dəyişir. Məsələn, Avropa artıq 1 Gbit-dən və ya 500 Mbit-dən danışır. Ancaq Azərbaycanda genişzolaqlı internet infrastrukturu olduğu halda kiçik limitli paketlərdən danışırıq. Burada texniki tələblər bizə nəyi göstərir? Ümumiyyətlə, internet infrastrukturunun inkişafı zərurəti haradan yaranır?

İnkişaf edən internet resursları, yəni onlayn oyunlar, konfranslar, məsafəli iş rejimləri və baxdığımız sosial şəbəkələr, digər videokontentlər - bunların hər birində daim yeniliklər gedir. YouTube-a 4ka, 8ka və daha yüksək keyfiyyətli videolar yerləşdirilə bilər. Konfrans proqramları daha keyfiyyətli görüntü əldə etmək üçün öz həlləri üzərində işləyirlər. Bütün internet resursları, xidmətləri daha yaxşı keyfiyyət vermək üçün öz imkanlarını genişləndirirlər. Daha yaxşı keyfiyyəti əldə etmək üçün bizə sürətli internet lazımdır. Rəqəmsallaşmanın hər bir çalarında sürətli internetə ehtiyac var. Azərbaycanda əksər aztəminatlı insanlar ən kiçik sürətli paketə yönəlirlər. Təbii ki, büdcə baxımından aşağı limitli paketlər insanlar üçün daha sərfəlidir. Amma bu, öz-özlüyündə keyfiyyəti verəcəkmi? Genişzolaqlı internet infrastrukturunun olduğu halda kiçik limitli paketlər bizim üçün nə dərəcədə faydalı olacaq?

Doğrudur, büdcə faktoru çox önəmlidir. Provayderlər qiymətləri hansı meyarlar əsasında təyin ediblər? Əsas meyarlar budur ki, Azərbaycanda genişzolaqlı internet infrastrukturunu özəl və dövlət provayder şirkətlərinin özləri öz büdcələri hesabına investisiya ediblər. Ona görə də qiymətlər bu provayderlərin iqtisadi göstəriciləri hesabına təyin olunub. Bu yanaşmadan baxanda təbii ki, onlar korporativ, qazanc məqsədli cəmiyyət və bizneslərdir. Qoyduqları investisiyaları nə vaxt çıxaracaqları barədə proqnozlar, hesabatlar hazırlayırlar. Bunun əsasında internet qiymətləri tənzimlənir. Hər iki göstərici - vətəndaşa xidmət göstəricilərinin yüksəldilməsi, qoyulan investisiyanın çıxarılması barədə qayğılar və digər hesabat yönümlü statistikalar qiymət və keyfiyyətin artmasına dəlalət edir".

**Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz deyir ki, dövlət provayderləri, regionlarda üstünlük təşkil edən "Aztelekom" qiymət artımında israrlıdır:** "Belə olan halda özəl provayderlərdən hər hansı yumşalma gözləntisi doğru olmaz. "Antiinhisar Dövlət Xidməti baş verənləri "kartel sövdələşməsi", "seçim imkanlarının məhdudlaşdırılması" kimi dəyərləndirib, araşdırma gedir. Qurum açıqlayıb ki, provayderlərin bu tip qərarlarının hüquqi qüvvəsi yoxdur. Güman ki, Antiinhisar bununla bağlı yenidən rəsmi açıqlama verəcək. Sektorun tənzimləyici qurumu İKTA hələlik baş verənlərə münasibət sərgiləməyib.

AİF hökumətə təklif edib ki, regionlarda əvvəlki tarif 18 manat (40 Mbit/s) saxlanılsın, yaxud da 100 Mbit/s sürət üçün də regionlarda bəlli bir dövr üçün 18 manat təklif edilsin.

Regionlardan daxil olan məlumatlar isə onu göstərir ki, istifadəçilərin bəziləri xidmətdən imtina, yaxud da "şərikli internet" üzərində düşünür.

"Şərikli internet" yaxın qonşuların ortaq internet bağlantısından (kabel və ya WiFi texnologiya ilə) istifadəni nəzərdə tutur. İndi məlum olur ki, nəinki kəndlərdə, elə şəhərdə də bu metoddan istifadə edənlər varmış.

Burada qanunvericiliyə zidd nəsə olmasa da informasiya təhlükəsizliyi ilə bağlı risklər ola bilər".

❑ **Şahanə RƏHİMLİ,**
**Musavat.com**



## Azərbaycana 7 ayda 500 min tona yaxın buğda idxal edilib

**2024-cü ilin yanvar-iyul aylarında Azərbaycana 102 milyon 620 min ABŞ dolları dəyərində 460 min 645 ton buğda idxal edilib.**

"APA-Economics" Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə həcm baxımından 20% və ya 117,4 min ton, məbləğ baxımından isə 37.7% və ya 62 mln. ABŞ dolları azdır.

Xatırladaq ki, cari ilin yanvar-iyul aylarında buğda idxalı Azərbaycanın ümumi idxalının 0.95%-nə bərabər olub.

Qeyd edək ki, hesabat dövründə ölkəyə idxal edilmiş buğdanın 1 tonunun orta qiyməti, ötən ilin müvafiq dövrü ilə müqayisədə 21.7% azalaraq 222.8 ABŞ dolları təşkil edib.

# "Salyan Oyl"un işçisi özünü yandırdı - şirkət açıqlama yaydı

**Salyan rayonunun Kürsəngi kənd sakini, 1988-ci il təvəllüdlü Zaur Oktay oğlu Aydınov üzərinə benzin tökərək özünü yandırıb.**

Ağır yanıq xəsarətləri ilə Şirvan xəstəxanasına yerləşdirilən xəstə daha sonra paytaxta yanıq mərkəzinə göndərilib.

Məlumata görə, hadisəyə səbəb onun işdən çıxarılması olub.

O. Aydınov özünü işlədiyi "Salyan oyl" şirkətinin qarşısında yandırıb.

Faktla bağlı araşdırma aparılır.

"Salyan Oyl Limited" şirkəti işçinin özünü yandırması ilə bağlı açıqlama yayıb.



Şirkətin mətbuat xidmətindən APA-ya verilən açıqlamada bildirilir ki, "Salyan Oyl Limited" şirkətinin 1 saylı Neft-qaz Çıxarma Sahəsinin 5-ci sahəsinin operatoru Zaur Aydınov bu gün səhər saatlarında şirkətin ofisinin həyətində özünü yandırmağa cəhd edib.

Qeyd olunub ki, iyulun 29-da, məzuniyyətdə olduğu müddətdə, Zaur Aydınovun şirkətdən yanacaq oğurluğu etməsi faktı aşkarlanıb: "Avqustun 7-də Zaur Aydınovdan faktla bağlı izahat alınıb və o, öz əməlini etiraf edib. Avqustun 16-da səhər saatlarında şirkətin daxili araşdırma komissiyası tərəfindən əlavə izahat və məlumat almaq üçün ofisə dəvət olunan Zaur Aydınov görüş zamanı zəng etmək bəhanəsi ilə ofis binasının həyətinə çıxaraq özünü yandırmağa cəhd edib. Aydınovun cəhdinə şirkət əməkdaşları tərəfindən dərhal müdaxilə edilib və o, təxirəsalınmadan xəstəxanaya təxliyə olunub. Hazırda Aydınov Şirvan şəhər xəstəxanasına yerləşdirilib, vəziyyəti nəzarət altındadır".

YENİ MÜSAVAT

Son səhifə

N 146 (8519) 17 avqust 2024

Avqust

## Bunları bilirsinizmi?

* Bədənimizdəki damarların ümumi uzunluğu 96 min kilometrdir. Bu uzunluq ilə dünyanı 3 dəfə dolaşmaq olar.
* İnsan gözü o qədər həssasdır ki, əgər dünya düz olsaydı, 60 km uzaqdakı şam işığını görə bilərdi.
* İnsan beyni dəqiqədə 1000 kəlmə oxuya bilər.
* İnsan saçı 12 ton çəkisi olan yük qaldıra bilər.
* İnsan bədənindən 30 dəqiqiədə çıxan enerji ilə 4 litr su qaynatmaq olar.
* İnsan bədənində şimpanzedə olan qədər tük var. Lakin onların çoxu görünmür.
* İnsan sümüyü qranit kimi möhkəmdir. Sümüklər 9 ton yük qaldıra bilər.
* İnsan beyni kompüter olsaydı saniyədə 38 katrilyon iş görə bilər. Dünyanın ən güclü komputeri olan "BlueGene" bu rəqəmin 2/1000 görə bilir.
* Körpələrin əksəriyyəti mavi gözlü doğulur. Lakin ultrabənövşəyi işıqların təsirindən rəng dəyişir.
* Bir dırnağın tam böyüməsi üçün 6 ay lazımdır.
* Böyrəklərimizdə 2 milyona yaxın filtr var ki, onlar da hər dəqiqədə 1,3 litr qan təmizləyir.
* Hər bir insanın özünə xas qoxusu var. Bu qoxu ancaq əkizlərdə eyni ola bilər.
* Çox yuxu görmək yüksək İQ səviyyəsindən xəbər verir.
* Səhər yuxudan duranda 1 sm daha uzun oluruq. Bunun səbəbi onurğa qığırdaqlarımızın gün boyunca yığılmasıdır.
* Bədənimiz hər saniyə 25 milyon yeni hüceyrə istehsal edir.
* İnsan beyni bütün bədənin oksigeninin 20 faizini təkbaşına istifadə edir.
* Bəzi qadınlar çox insanla müqayisədə dünyanı daha rəngli görürlər. İnsanların əksəriyyətində 3 tip rəng qəbuledici olsa da, az qism qadınlarda bu say 4-5 arasında olur.



## Alimlər idmanla məşğul olmaq həvəsinin "açarını" tapdılar

**Alimlər idmanla məşğul olma həvəsinin "açarını" tapıblar. Bu barədə İspaniyanın Milli Xərçəng Araşdırmaları Mərkəzi məlumat verib. Tədqiqatın nəticələri "Science Advances" jurnalında dərc olunub. Bildirilir ki, idmanla məşğul olmaq istəyinin əsasında duran mexanizmləri müəyyənləşdirmək üçün alimlər iki qrup siçan üzərində eksperiment aparıblar. Birinci qrup adi gəmiricilərdən, ikinci qrup isə yüksək yağlı pəhriz nəticəsində artıq çəki yığmış heyvanlardan ibarət olub.**

Tədqiqat göstərib ki, intensiv məşqlər zamanı siçanların orqanizmində iki zülal - "p38" və "p38" aktivləşir. Bu prosesə "interleykin 15" ("IL-15") adlı başqa bir zülal da cəlb olunur. Fiziki hərəkətlər "p38" zülalını aktivləşdirir ki, bu da orqanizmdə "IL-15"in sintezini artırır. Qanda "IL-15" səviyyəsinin yüksəlməsi beyinə fiziki aktivliyin artması haqqında siqnal ötürür, bu da hərəkətliliyin artmasına səbəb olur. Tədqiqat müəllifləri iddia edirlər ki, piylənmə və idman zamanı əzələlərdə "p38" zülalının aktivləşməsi arasındakı əlaqə artıq çəkidən xilas olmaq üçün açar rolunu oynaya bilər. Onlar həmçinin qeyd edirlər ki, müntəzəm məşqlər piylənmənin profilaktikası və müalicəsinin effektiv üsuludur.

# ABŞ-da səkkiz yaşlı qız atasını canidən xilas etdi



**ABŞ-ın Minnesota ştatında səkkiz yaşlı məktəbli qız mağazanı qarət etmək istəyən cinayətkarla mübarizə aparıb. Bu barədə CBS məlumat yayıb.**

Hadisə Sent-Pol şəhərindəki mağazalardan birində baş verib. Mağaza müdiri səkkiz yaşlı qızını özü işə gətirib. Həmin şəxs mağazanı bağlamağa hazırlaşarkən tapança ilə silahlanmış oğru mağazaya girib. O, silahı satıcıya doğru tutaraq kassadan pul tələb edib.

Silahlı kişini görən məktəbli beysbol dəyənəyini götürərək hücumçunu bir neçə dəfə vurub. Soyğunçu saxlanılıb, səlahiyyətlilər ona ittiham irəli sürməyə hazırlaşırlar.

# Təmizlik vasitələrinin qorxunc fəsadı



**Tailandda yaşayan 60 yaşlı qadın və onun 34 və 25 yaşlı qızları tıxanmış tualeti təmizləmək üçün kükürd turşusu və kaustik soda istifadə ediblər. Lakin bu iki təhlükəli maddənin qarışığı onların ölümünə səbəb olub. Bu barədə yerli polis məlumat yayıb. Polisin məlumatına görə, tualetdəki kiçik otaqda yalnız bir havalandırma dəliyi olduğundan toksik buxarlar qadınlar üçün ölümcül təhlükəyə çevrilib. Qadınlar tapıldığı zaman onların ağızları köpüklə dolu, barmaqlarının ucları və dodaqları isə tünd yaşıl rəngdə olub. Zəhərlənən qadınlardan biri artıq ölmüş olub, digərlərinin həyatı üçün isə həkimlər mübarizə aparıblar.**

Mütəxəssislər kükürd turşusu və kaustik sodanın qarışdırılmasının təhlükəli olduğu barədə xəbərdarlıq edirlər. Belə bir qarışıq kanalizasiya qazı kimi tanınan ölümcül buxarların əmələ gəlməsinə səbəb olur. Tailandda son illərdə kanalizasiya qazından zəhərlənmə hallarının sayı artmaqdadır. Rəsmi statistikaya görə, ötən il ölkədə bu səbəbdən 200-dən çox insan həyatını itirib. Hökumət vətəndaşları xəbərdar etmək və maarifləndirmək üçün tədbirlər görməyə başlayıb.

## Yerin ən qədim orqanizmlərinin qlobal artımının nəticələri barədə xəbərdarlıq edildi



**Avstraliya, Avstriya və İspaniyadan olan beynəlxalq alimlər qrupu belə qənaətə gəliblər ki, qlobal temperaturun artması Yer kürəsinin ən qədim canlı orqanizmləri olan prokariotların çoxalmasına şərait yarada bilər. Bu, istixana qazlarının emissiyalarını əhəmiyyətli dərəcədə artıracaq.**

Tədqiqat "Nature Communications" (NatComms) elmi jurnalında dərc olunub. Prokariotlar dünya okeanlarındakı həyatın 30%-ni təşkil edən kiçik canlılardır. Onlara eubakteriyalar və arxeobakteriyalar daxildir. Eubakteriyalar təxminən 3.5 milyard il əvvəl təkamül prosesində yaranıb.

Dəniz prokariotları çox sürətlə böyüyərək böyük miqdarda karbon buraxırlar. Hər il bu orqanizmlər təxminən 200 milyard ton karbon istehsal edir ki, bu da indiyə qədər yaşamış bütün insanların sayından iki dəfə çoxdur. Bu güclü emissiyalar fotosintez yolu ilə karbon qazını və günəş işığını enerjiyə çevirən fitoplankton tərəfindən tarazlaşdırılır.

Yeni araşdırmada komanda bütün okeanlar boyunca uzunmüddətli müşahidələr əsasında kompüter modelləri hazırlayıb. Hesablamalar göstərib ki, prokariotlar qlobal istiləşməyə son dərəcə davamlıdırlar.

Okeanların hər bir dərəcə istiləşməsi üçün onların biokütləsi təxminən 1.5% azalacaq. Bu, plankton, balıq və məməlilərin populyasiyalarında proqnozlaşdırılan azalmanın (müvafiq olaraq 3-5%) yarısından da azdır.

Bu o deməkdir ki, gələcək dəniz ekosistemlərində ümumi biokütlə azalacaq və mövcud qida maddələri və enerji daha çox prokariotlara yönəldiləcək, bu da balıqlar və digər heyvanlar arasında qida çatışmazlığına səbəb ola bilər.

Üstəlik, modelləşdirməyə görə, istiləşmənin hər dərəcəsi üçün dünya okeanının 200 metr dərinliyində yaşayan prokariotlar hər il əlavə 800 milyon ton karbon istehsal edəcəklər. Bu, bütün Avropa İttifaqının bir il ərzindəki cari emissiyasına bərabərdir.

Alimlər vurğulayıblar ki, balıq populyasiyasının azalması dünyanın qida təminatı üçün böyük problem yaradır, çünki okeanlar təqribən 3 milyard insan üçün əsas protein mənbəyi olaraq qalır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 1.500